HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 39 (729) ■ 10 oktyabr 2014 www.vergiler.az Qiyməti: 40 qəp.

# Prezident İlham Əliyev: “Azərbaycan dünyada islahatçı ölkə kimi tanınır”

*Oktyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.*



İclası giriş nitqi ilə açan dövlətimizin başçısı üçüncü rübdə ölkəmizin inamlı inkişafı istiqamətində önəmli addımların atıldığını iqtisadiyyatın uğurla inkişaf etdiyini diqqətə çatdırıb.

Dövlət başçısı bildirib ki, doqquz ayın iqtisadi göstəriciləri də çox müsbətdir. İqtisadiyyatımız inkişaf edir, artır: «Xüsusilə qeyd etməliyəm ki, Avropada iqtisadi maliyyə böhranı davam edir, ancaq Azərbaycanda hər il iqtisadi inkişaf müşahidə olunur və bu ilin doqquz ayında ümumi daxili məhsul 2,5 faiz artmışdır. Dünyada mövcud olan vəziyyəti nəzərə alsaq, deyə bilərik ki, bu, çox müsbət göstəricidir. Ən önəmlisi ondan ibarətdir ki, - bunu biz hər dəfə məmnuniyyətlə qeyd edirik, - qeyri-neft sektorumuz 6 faiz artmışdır. Qeyri-neft sektorunun artması, əlbəttə ki, bizim siyasətimizin nəticəsidir. Çünki bizim üçün əsas məsələ qeyri-neft sektorunun inkişafıdır».

Azərbaycan Prezidenti vurğulayıb ki, ölkədə inflyasiya çox aşağı səviyyədədir - cəmi 1,5 faiz. Əhalinin pul gəlirləri isə 5,4 faiz artmışdır. İnflyasiyanın əhalinin gəlirlərini üstələməsi bilavasitə insanların yaşayış səviyyəsinə müsbət təsir göstərir.

Ötən dövrdə ölkə iqtisadiyyatına investisiya qoyuluşunun artdığını deyən Prezident İlham Əliyev ilin əvvəlindən 19 milyard dollar sərmayə qoyulduğunu, onun 11 milyardının daxili sərmayə olduğunu xatırladıb: «İnvestisiyalar artır və daxili investisiyalar üstünlük təşkil edir. Düzdür, daxili investisiyaların böyük hissəsi dövlət investisiyalarıdır. Bu da təbiidir. Çünki hələ də dövlət xətti ilə infrastruktur layihələrinə, o cümlədən sosial infrastruktur layihələrinin icrasına vəsait ayrılmalıdır. Ancaq Azərbaycana özəl sərmayə də qoyulur. Azərbaycanda çox müsbət sərmayə iqlimi vardır, yerli və xarici investorlar bizim ölkəmizə inanırlar, ölkəmizin gələcəyinə inanırlar. Buna görə Azərbaycana çox böyük həcmdə investisiyalar qoyulur. Dünyanın əksər ölkələrində xarici investisiyaları cəlb etmək üçün çox böyük işlər aparılır, rəqabət aparılır. Çünki hər bir ölkənin iqtisadi inkişafını investisiyalar müəyyən edir. Bu gün avrozonada müşahidə olunan vəziyyət onu göstərir, ekspertlər, alimlər qeyd edirlər ki, investisiyalar olmasa, bu böhrandan çıxmaq çətin olacaqdır».

İlin əvvəlindən maliyyə resurslarımızın 3 milyard 600 milyon dollar artdığını qeyd edən dövlətimizin başçısı bütövlükdə valyuta ehtiyatlarının 53 milyard dollardan çox, adambaşına düşən valyuta ehtiyatlarımızın isə dünya miqyasında ən yüksək səviyyədə olduğunu vurğulayıb: « Mən dəfələrlə demişəm ki, əvvəlki illərdə bizim əsas vəzifəmiz iqtisadi müstəqilliyimizi yaratmaq idi. Bunu da yaratmışıq. Biz iqtisadi cəhətdən tam müstəqilik, heç kimdən asılı deyilik və bu bizə imkan verir ki, siyasi sahədə də, o cümlədən xarici siyasətdə də müstəqil siyasət aparaq. Bizim əsas istinad nöqtəmiz, güc mənbəyimiz iqtisadi müstəqilliyimizdir».

Prezident İlham Əliyev bildirib ki, 2014-cü ilin ötən dövründə respublikamızın beynəlxalq reytinqi də güclənib, ən mötəbər qurumların beynəlxalq hesabatlarında Azərbaycanın islahatçı ölkə kimi mövqeyi əhəmiyyətli dərəcədə yaxşılaşıb: «Azərbaycanda aparılan islahatlar və düşünülmüş iqtisadi siyasət dünyanın ən mötəbər iqtisadi qurumları tərəfindən də yüksək qiymətləndirilir. Davos Dünya İqtisadi Forumu Azərbaycanı rəqabət qabiliyyətliliyinə görə 38-ci yerə layiq görmüşdür. Biz bir pillə də irəliyə getdik və dünya miqyasında bu göstəriciyə görə 38-ci yerdə olmaq tarixi nailiyyətdir. Yəni, bir sözlə, biz dünyanın ən rəqabət qabiliyyətli 40 ölkəsinin sırasındayıq. Bu, tarixi nailiyyətdir və bizə əlavə inam verir. Biz onsuz da bilirik ki, düz yoldayıq. Azərbaycan inamla inkişaf edir. Ancaq mötəbər, böyük nüfuzu olan maliyyə-iqtisadi qurumların qiymətləndirməsi, əlbəttə ki, çox önəmlidir».

Doqquz ayda bütün infrastruktur layihələrin uğurla icra edildiyini, bölgələrdə yeni istehsal sahələrinin yaradıldığını bildirən dövlətimizin başçısı regionlarda 100 mindən çox yeni iş yeri açıldığını diqqətə çatdırıb: «2004-cü ildən bu günə qədər 1 milyon 300 min yeni iş yeri açılmışdır. Bu da imkan vermişdir ki, işsizlik kəskin şəkildə aşağı düşsün və bu gün 5 faiz səviyyəsindədir. Bəzi inkişaf etmiş ölkələrdə işsizlik 25, 30 faizdir, gənclər arasında isə 50 faizə çatır. Ancaq Azərbaycanda işsizliklə bağlı problemlər öz həllini tapır və burada əlbəttə ki, dövlət investisiyaları, gözəl sərmayə iqlimi, biznes mühitinin yaxşılaşdırılması faktorları öz rolunu oynayır».

Azərbaycan Prezidenti qeyd edib ki, sosial sahədə baş verən müsbət dəyişikliklər davamlı olaraq maaşların və pensiyaların artması üçün imkanlar yaradıb: «Sosial proqramlar icra edilir, doqquz ayda maaşlar, pensiyalar, orta əməkhaqqı artmışdır. Sosial layihələr icra edilir, - məktəblər, xəstəxanalar, olimpiya kompleksləri, mədəniyyət ocaqları, - bu sahəyə də böyük diqqət göstərilir və bizim investisiya portfelimizdə sosial layihələrə xərclənən vəsait kifayət qədər böyükdür».

2014-cü ilin ən mühüm hadisəsi kimi «Cənub» qaz dəhlizinin təməlinin qoyulduğunu diqqət çatdıran dövlətimizin başçısı burada əsas rolu Azərbaycanın oynadığını xatırladıb: «Əminəm ki, yaxın gələcəkdə «Cənub» qaz dəhlizi tikiləcək, istifadəyə veriləcək və ölkəmizin bundan sonra onilliklər ərzində inamlı inkişafını təmin edəcək. Bizim siyasi çəkimiz artacaq, iqtisadi sahədə yeni imkanlar yaranacaq. Kəmərin tikintisi zamanı minlərlə, on minlərlə Azərbaycan vətəndaşı işlə təmin ediləcək, yüzlərlə Azərbaycan şirkəti podratçı kimi iştirak edəcək. Yəni bu, ölkəmizə böyük gəlir və siyasi dividend gətirən bir layihədir, tarixi layihədir. Biz fəxr edirik ki, Azərbaycan bu tarixi layihənin icraçısıdır, lider dövlətdir. Bu hadisə doğrudan da tarixdə qalacaq. Keçən əsrin sonlarında «Əsrin kontraktı» imzalanmışdı. O, XX əsrin kontraktı idi. Bu layihə isə XXI əsrin layihəsidir. Əminəm ki, biz bu layihəni də uğurla icra edəcəyik».

Bu ilin «Sənaye ili» olduğunu xatırladan Prezident İlham Əliyevin sözlərinə görə, ötən dövrdə sənaye istehsalının inkişafına xüsusi diqqət yetirilib. Bir çox zavodlar, fabriklər, istehsalat sahələri açılıb. Ərzaq təhlükəsizliyi məsələsinə də toxunan dövlətimizn başçısı bildirib ki, biz özümüzü əsas ərzaq məhsulları ilə tam şəkildə təmin etməliyik.

Tədbirdə maliyyə naziri Samir Şərifov, ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov, gənclər və idman naziri Azad Rəhimov çıxış edərək ötən 9 ayda ölkəmizin inkişafı ilə bağlı mühüm hadisələrin qeydə alındığını diqqətə çatdırıblar.

İclasda yekun nitqi ilə çıxış edən Prezident İlham Əliyev bildirib ki, ilin sonunadək nəzərdə tutulmuş bütün məsələlər axıra qədər həllini tapmalıdır: «Büdcədə kifayət qədər vəsait vardır. İnfrastruktur layihələri başa çatdırılmalıdır. Bir sözlə, 2014-cü ildə də biz qarşımıza qoyduğumuz bütün məsələləri həll etməliyik və edəcəyik. Dövlət İnvestisiya Proqramı tam şəkildə icra edilməlidir. Əminəm ki, belə də olacaq. İnfrastruktur layihələrinin icrası davam etdirilir».

2014-cü ilin dövlət büdcəsi layihəsinin hazır olduğunu deyən dövlətimizin başçısı yeni büdcə zərfində bütün sahələr üzrə məsələlərin nəzərə alınacağını, xüsusilə də hərbi xərclərə xüsusi diqqət göstərilməli olduğunu diqqətə çatdırıb: «Mən dəfələrlə demişəm ki, biz müharibə şəraitində yaşayırıq, müharibə bitməyib, davam edir. Sadəcə olaraq, atəşkəs rejimi yaradılmışdır. Ona görə, yeni müasir silahların, yüksək dəqiqliyə malik olan silahların alınması məsələləri öz həllini tapır və tapmalıdır. Son illərdə biz bu sahədə böyük nailiyyətlərə çatmışıq. Bizim hərbi təlimlərimizdə və hərbi paradlarda nümayiş etdirilən texnika ən yüksək standartlara cavab verir. Texniki təchizat baxımından Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və biz bu prosesi davam etdirməliyik. Müvafiq göstərişlər verilib. Müqavilələrin bəziləri bağlanıb və yenə də bağlanacaq. Biz hərbi-texniki təchizatı yüksək səviyyədə təşkil etməliyik».

Prezident İlham Əliyev ölkəmizin ixrac potensialının artması üçün bir sıra addımların atılmalı olduğunu, bu sahədə yeni imkanların açıldığını da xatırladıb: «Xüsusilə kənd təsərrüfatı məhsullarının ixracı üçün yeni imkanlar yaranmışdır. Biz bu imkanlardan səmərəli şəkildə istifadə etməliyik. Əvvəlki dövrdə və hazırda bu sahədə görülən işlər deməyə əsas verir ki, biz buna nail olacağıq. Çünki ilk növbədə islahatlar aparılır və kənd təsərrüfatının inkişafı üçün müasir yanaşma tətbiq edilməlidir».

Dövlətimizin başçısı infrastruktur, ekoloji layihələrin icrası ilə bağlı görülən işlərə toxunaraq bu istiqamətdə tədbirlərin daha da gücləndirilməsinin vacibliyini diqqətə çatdırıb.

# Dövlət başçısı İlham Əliyev Xırdalan şəhərində olub

*Oktyabrın 3-də Azərbaycan Prezidenti İlham Əliyev Xırdalan şəhərinə gəlib. Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Xırdalan şəhərindəki abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub, daha sonra Heydər Əliyev Mərkəzinin açılışında iştirak edib.*



Dövlətimizin başçısına məlumat verilib ki, mərkəzin özəlliyini artıran mühüm amillərdən biri burada interaktiv məlumat tablolarına geniş yer verilməsidir. Mərkəzdə ümummilli liderin xatirəsinin əbədiləşdirildiyi muzey də yaradılıb. Ekspozisiya zallarının hamısı zəruri avadanlıqla təchiz olunub. Mərkəzin funksionallığını artırmaq məqsədilə burada gənclər üçün müzakirə və diskussiya zalları qurulub, elektron kitabxana yaradılıb. Sərgi zalından əlavə, mərkəzdə linqafon, internet və rəssamlıq otaqları, fotostudiya və rəqs zalı da var. Qeyd edilib ki, bu mərkəzdə də vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı və bununla bağlı mərasimlərin təşkili nəzərdə tutulur. 280 yerlik böyük akt zalı istifadəyə verilib ki, burada da rayonla bağlı bir çox tədbirlərin keçirilməsi üçün böyük imkanlar var.

Prezident İlham Əliyev Xırdalan şəhərində Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında aparılan yenidənqurma işləri ilə də tanış olub. Qeyd edilib ki, Xırdalan şəhərinin mərkəzində yerləşən parkda yenidənqurma işləri ən yüksək səviyyədə görülüb, parkın ərazisi tamamilə yenidən qurulub. Ərazisi 12 hektar olan parkda sakinlərin mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılıb. Parkın ərazisində çoxlu ağac və dekorativ gül kolları əkilib, çəmənlik salınıb.

Sonra Azərbaycan Prezidenti Xırdalan şəhərindəki Bayraq Meydanında olub. Dövlətimizin başçısına məlumat verilib ki, bayraq dirəyinin hündürlüyü 65 metrdir. Burada müxtəlif videogörüntülərin nümayiş etdirilməsi üçün böyük monitor da quraşdırılıb.

Xırdalan şəhərində yaradılan «Park Abşeron» əyləncə mərkəzində yaradılan şəraitlə də tanış olan Prezident İlham Əliyevə bildirilib ki, əyləncə mərkəzi də öz dizaynına, memarlıq quruluşuna görə şəhərin simasına xüsusi yaraşıq verir. İndi Xırdalan şəhərinin mənzərəsinin maraqlı elementinə çevrilən bu modern əyləncə mərkəzində yaradılan şəraitdən məqsəd ilk növbədə, insanların mənalı istirahətini təşkil etmək, onlara mənəvi zövq yaşatmaqdır. 1400 kvadratmetr ərazisi olan əyləncə mərkəzində buz meydançası yaradılıb. Bu da həm uşaqlar, həm də gənclər üçün maraqlı istirahət imkanı yaradır. Azərbaycan Prezidenti Xırdalan şəhərində musiqi məktəbinin və şahmat məktəbinin açılışında da iştirak

2 «E-hökumət» portalında növbəti yenilik

3 2015-ci ildən bələdiyyələrdə yerli ödənişlər nağdsız şəkildə aparılacaq

4 Azərbaycanda sığorta sisteminin iqtisadi və sosial proseslərdə rolu

5 «Asan imza» işgüzar mühitə rahatlıq gətirir

# Qanunvericiliyin pozulması halları aşkarlanıb

*2014-cü ilin yanvar-sentyabr ayı ərzində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən vergi ödəyicilərinin aşkarlanması və s. kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə vergi orqanları tərəfindən keçirilmiş tədbirlər zamanı 44073 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilmişdir.*

24190 vergi ödəyicisi tərəfindən nağd hesablaşmaların aparılması qaydalarının pozulduğu, 7205 vergi ödəyicisi tərəfindən qanunla nəzərdə tutulmayan valyutanın ödəniş vasitəsi kimi qəbul olunduğu, ticarət, iaşə və xidmət müəssisələrində qanunsuz olaraq alınıb-satıldığı və ya dəyişdirildiyi, 6727 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) almadan məşğul olduğu müəyyən edilmişdir.

Operativ nəzarət tədbirləri zamanı 3032 vergi ödəyicisi tərəfindən 4183 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi, 2222 vergi ödəyicisi tərəfindən fərqlənmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşındığı, 697 vergi ödəyicisində aksiz markaları ilə müvafiq qaydada markalanmamış 7274 ədəd mal olduğu aşkarlanmışdır.

# Vergi hüquqpozmalarına qarşı mübarizə tədbirləri gücləndirilir

2014-cü ilin ilk doqquz ayı ərzində Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində vergi ödəməkdən yayınma və qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma faktları üzrə 593 cinayət işi başlanmışdır. Bunlardan 111-i vergi ödəməkdən yayınma və qanunsuz sahibkarlıq faktları (73-ü külli və xeyli miqdarda gəlir əldə etməklə vergidən yayınma olmaqla) ilə əlaqədar səyyar vergi yoxlamalarının nəticələrinə dair materiallar, 475-i vergi borcunun ödənilməməsi barədə materiallar, ikisi aksiz markaları ilə markalanmamış malların satış məqsədilə saxlanması faktı barədə vergi orqanlarından daxil olmuş materiallar, beşi isə qanunsuz sahibkarlıq faktı ilə əlaqədar digər hüquq-mühafizə orqanlarından daxil olan materiallar ilə bağlı olmuşdur.

Doqquz ay ərzində departamentin İstintaq idarəsində 283 cinayət işi üzrə ibtidai istintaq tamamlanmış, 14 nəfər təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilmişdir. İstintaqı tamamlanmış cinayət işlərindən 85 nəfər barəsində 78 iş ittiham aktı ilə aidiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərilmişdir.

2014-cü ilin 9 ayı ərzində cinayət işləri və materiallar üzrə aparılan araşdırmalar zamanı 10 milyon 171,1 min manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.

İcraatına xitam verilmiş 205 cinayət işindən 146-sı üzrə müəssisə rəhbərləri və fiziki şəxslər yayındırdıqları vergiləri ibtidai istintaq zamanı tamamilə ödədiklərinə görə barələrində müvafiq qərarlar qəbul edilmişdir.

Cinayət işləri üzrə keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində vergi cinayətləri törətdiklərinə görə barələrində axtarış elan edilmiş 17 nəfər tutularaq İstintaq idarəsinə təhvil verilmiş, ibtidai istintaqdan yayınan 297 şəxsin məcburi qaydada gətirilməsi, 126 şəxsin tapılaraq istintaqa gəlməsi təmin edilmiş, 148 şəxsin isə yeri müəyyən olunmuşdur. Vergi orqanlarının üzərinə düşən vəzifələrin icrasına kömək göstərilməsi ilə bağlı müraciətlərə baxılması nəticəsində vergi yoxlamalarından, əmlakının siyahıya alınmasından yayınan və fəaliyyəti barədə bəyannamə təqdim etməyən 315 nəfər vergi ödəyicisi müvafiq vergi orqanlarına təqdim edilmişdir.

# «Fitch» Azərbaycanın reytinqlərini təsdiq edib

*Beynəlxalq «Fitch Ratings» reytinq agentliyi Azərbaycanın xarici və milli valyutada uzunmüddətli defolt emitenti reytinqlərini («RDE») «BBB-» səviyyəsində təsdiq edib. Bu barədə agentliyin cümə günü yaydığı məlumatda deyilir.*




Hesabatda Azərbaycanın xarici və milli valyutada prioritetli təmin edilməmiş istiqrazlarının reytinqləri də «BBB-» səviyyəsində təsdiq edilib. Ölkə üçün maksimal hədd «BBB-», xarici valyutada qısamüddətli «RDE» isə «F3» səviyyəsindədir.

Azərbaycanın reytinqlərinin təsdiq edilməsi hasilatın növbəti beş il ərzində bütövlükdə sabit qalacağı barədə «Fitch»in gözləntilərinin sübutudur. Yeni yataqlar və hökumətin BP-nin başçılıq etdiyi konsorsiumla məhsulların bölgüsü haqqında müqaviləsinin mümkün genişləndirilməsi hasilatın təbii azalması templərini nizamlayacaq. Məlumatda bildirilir ki, 2013-cü ilin dekabrında «Şahdəniz-2» layihəsinin iştirakçıları Avropaya ixrac marşrutunu seçdikdən sonra təbii qazın ixracı üzrə proqnoz daha konkret olub.

«Fitch» qeyd edir ki, Azərbaycanın dövlət balansı reytinq verilən suveren emitentlər arasında ən güclüsüdür və reytinqi dəstəkləyir. ARDNF 2013-cü ildə 1,7 mlrd. dollar yığıb və vəsaitləri 35,9 mlrd. dollara (ÜDM-in 49%-i) çatıb. Azərbaycan Mərkəzi Bankının beynəlxalq ehtiyatları 14,4 mlrd. dollardır. Agentlik suveren aktivlərin zəif artımını gözləyir, bu isə neftin qiyməti və ya hasilatda şok zamanı ehtiyatı təmin edəcək.

«Fitch»ə görə, neftin uzun müddətə ucuzlaşması, daxili və ya regional şok, məsələn, Dağlıq Qarabağ ətrafında vəziyyətin gərginləşməsi reytinq hərəkəti ilə nəticələnə bilər.


## Vergi ödəyicilərinin nəzərinə!

**Hörmətli vergi ödəyiciləri!**

**Əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemində (www.e-gov.az, www.mlspp.gov.az) qeydiyyatdan keçirildikdən sonra hüquqi qüvvəyə minir. Bunun üçün işəgötürənlərin və ya onların nümayəndələrinin gücləndirilmiş elektron imzası, o cümlədən "ASAN İmza"sı olmalıdır.**

Vergi ödəyiciləri "ASAN İmza" sertifikatını əldə etmək üçün "ASAN İmza" sim kartını Azərbaycanın hər üç mobil operatorundan 18 manat ödəməklə əldə edə və vergi ödəyicilərinə xidmət mərkəzlərinə yaxınlaşmaqla müvafiq sertifikatı ala bilərlər. Bundan sonra əmək müqavilələri elektron sistemə daxil edilir.

Vergilər Nazirliyi bildirir ki, işəgötürənlər tərəfindən əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi Vergi Məcəlləsinin 58.10-cu, İnzibati Xətalar Məcəlləsinin 53.1-ci və Cinayət Məcəlləsinin 162-1-ci maddələri ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Nəzərinizə çatdırırıq ki, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə, ödənişsiz qaydada əmək müqavilələrinizi elektron sistemə daxil edə bilərsiniz.

Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və "195" Çağrı Mərkəzindən əldə edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ


# «E-hökumət» portalında növbəti yenilik

«Elektron hökumət» portalı bütün dövlət qurumlarının xidmətlərinə tək bir nöqtədən giriş imkanını təmin edən və ölkə əhalisinin ən çox müraciət etdiyi ünvanlardandır. Bu unikal virtual məkanın əhatə dairəsi günü-gündən genişlənir, dövlət qurumlarının təqdim etdiyi xidmətlərin sayı və keyfiyyəti yüksəlir. Hazırda portalda istifadəçilərə 41 dövlət qurumu tərəfindən 373 elektron xidmət təklif edilir və hər bir dövlət qurumu təqdim etdiyi məlumatların keyfiyyətinə, tamlığına və düzgünlüyünə cavabdehdir.




Portalda vətəndaşların dövlət orqanlarının göstərdiyi xidmətlərdən istifadə imkanlarının təmin edilməsi, təqdim olunan xidmətlərin qiymətləndirilməsi məqsədilə mütəmadi olaraq yeniliklər tətbiq edilir. Bu istiqamətdə növbəti yenilik «Əks əlaqə» və «Müraciətlər» adlı xüsusi bölmələrin yaradılmasıdır. Bu bölmələr vasitəsilə «Elektron hökumət» portalı üzərindən təqdim edilən xidmətlərin istifadəsi ilə əlaqədar vətəndaşlar tərəfindən xidmət təminatçısı ilə əks əlaqə yaradılması, təklif, şikayət və s. xarakterli müraciətlərin edilməsi, müraciətlərin xidmət təminatçısı tərəfindən cavablandırılması, xidmətdən istifadə zamanı baş verən problemlərdən vaxtında xəbər tutulması və s. mümkündür.

Məlumat Hesablama Mərkəzindən (MHM) verilən məlumata görə, vətəndaşlar portalda «Müraciətlər» bölməsinə daxil olaraq, eləcə də hər bir e-xidmət səhifəsində olan «Əks əlaqə» düyməsini seçərək istənilən elektron xidmət ilə bağlı müraciətləri portal üzərindən xidmət təminatçısına ünvanlaya və verilən cavabları izləyə biləcəklər. Sistemdə vətəndaş ilə xidmət təminatçısı arasında passiv rejimdə dialoq aparılır və bütün yazışmalar arxivləşdirilir. Noyabrın 1-dən başlayaraq sistemin tam şəkildə istismara verilməsi planlaşdırılır və bundan sonra vətəndaşlardan daxil olan müraciətlər, onların cavablandırılması barədə statistik məlumatlar portalda qurumlar üzrə onlayn rejimdə yerləşdiriləcək və aylıq «Elektron hökumət bülleteni»ndə dərc ediləcək. Bu statistik məlumatlar - dövr ərzində daxil olan müraciətlərin, həmin müraciətlərdən cavablandırılanların, təkrar daxil olan müraciətlərin, cavablandırılmayan müraciətlərin və vətəndaşları qane edən cavabların saylarını əhatə edəcək. Daxil olan müraciətləri cavablandıracaq məsul şəxslər barədə məlumatlar dövlət qurumları tərəfindən Məlumat Hesablama Mərkəzinə siyahı şəklində təqdim olunacaq.

Qeyd edək ki, «Elektron hökumət» portalının xidmətlərindən Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən verilən «E-imza kartı», «Asan imza», «Elektron hökumət» sistemi tərəfindən vətəndaşa verilmiş kod və mobil autentifikasiya sertifikatı ilə daxil olaraq istifadə etmək mümkündür.

**AYTƏN**

# Belçika-Azərbaycan biznes forumu keçirilib

*Avropa Azərbaycan Cəmiyyətinin (TEAS) London və Parisdə uğurla keçirdiyi biznes-forumlar seriyasından sonra cəmiyyətin Belçika nümayəndəliyi tərəfindən Azərbaycanda «Sənaye ili» çərçivəsində təşkil olunan analoji tədbirdə əsas diqqət qeyri-neft sahəsinə yönəldilib.*

Avropa Azərbaycan Cəmiyyətindən verilən məlumata görə, 200-dən artıq nümayəndənin qatıldığı tədbir Belçika şirkətlərini Azərbaycanın tikinti, kənd təsərrüfatı və ətraf mühitin qorunması sahəsindəki biznes imkanları ilə tanış etmək məqsədi daşıyırdı.

TEAS-ın direktoru Lionel Zetter biznes forumundakı çıxışında Azərbaycanın biznes imkanlarını yüksək dəyərləndirərək deyib: «İqtisadiyyatının inkişafı, Qərb ölkələri ilə bağların artması və stabilliyi baxımından Azərbaycan çiçəklənən ölkədir. Azərbaycanı ziyarət edənlərin hamısı bilməlidir ki, bu ölkədə biznes qurmaq çox asan və azaddır. Azərbaycan «Şərq Tərəfdaşlığı» çərçivəsində Avropa İttifaqına ən yaxın ölkələrdən biridir. Bu ölkə gəzmək, yaşamaq və biznes qurmaq üçün çox əlverişlidir».

Belçika Xarici İşlər Nazirliyinin şöbə müdiri Johan Van Dessel öz çıxışında qeyd edib ki, ölkələrimiz arasındakı ikitərəfli münasibətlər yüksələn xətt üzrə inkişaf edir. Lakin bu münasibətləri daha da yaxşılaşdırmağa ehtiyac var: «Avropa İttifaqının bir üzvü kimi Belçika Azərbaycanla «Şərq Tərəfdaşlığı» proqramı çərçivəsində əməkdaşlıqdan məmnundur. Hazırda Azərbaycan Avropa Şurasının Nazirlər Komitəsinin sədri missiyasını həyata keçirir. Noyabr ayında bu quruma sədrlik Belçikaya keçəcək. Biz Azərbaycanın uğurlu işini davam etdirməyə ümid bəsləyirik».

Azərbaycan Respublikasının Belçika Krallığındakı fövqəladə və səlahiyyətli səfiri və eyni zamanda Avropa İttifaqında Azərbaycan nümayəndəliyinin rəhbəri Fuad İsgəndərov «Cənub» qaz dəhlizinin təməlqoyma mərasimi haqqında məlumat verərək deyib ki, 45 milyard dollar dəyəri olan layihədə iştirak edən səhmdarlardan biri də Belçikanın «Fluxys» şirkətidir. Azərbaycanı daha da inkişaf etdirmək üçün Qərb texnologiyalarına və elmi yanaşmalara ehtiyac duyulur. Məhz buna görə, müvafiq Dövlət Proqramı çərçivəsində hər il yüzlərlə azərbaycanlı gənc dövlət hesabına xaricdə təhsil almağa göndərilir.

Səfir çıxışını biznes nümayəndələrinə bu çağırışla tamamlayıb: «Azərbaycan sizin yolunuzu gözləyir. Mənim ölkəm öz gələcəyinin qurulmasında sizin iştirakınız üçün açıqdır».

Azərbaycan İnvestisiya Şirkətinin (AİŞ) icraçı direktoru Rövşən Nəcəf ölkəmizin iqtisadiyyatı barədə danışaraq deyib ki, son beş ildə qeyri-neft sektoru ümumi iqtisadiyyatın katalizatoruna çevrilib və bu sahənin inkişafına dair aydın strategiya mövcuddur: «Azərbaycan elm üzərində qurulmuş dövlət yolunu seçib. Burada azad sərmayə şəraiti var və biz 46 qarşılıqlı sərmayə sazişi imzalamışıq. Ümid edirik ki, Brüsseldə keçirilən bu biznes-forum AİŞ və Belçika şirkətlərinin müştərək müəssisələr yaratması ilə nəticələnəcək».

Dünya Bankının baş infrastruktur müfəttişi Hacı Hüseynov, Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Rəşad Məcidov, «Təmiz Şəhər» ASC-nin Abşeron Göllərinin Bərpası proqramının ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Oqtay Məmmədov Azərbaycanda həyata keçirilən irimiqyaslı layihələr, nəzərdə tutulan işlər, ölkəmizdəki sərmayə mühiti və biznes imkanları barədə məlumat veriblər. Qeyd olunub ki, hazırda Bakı şəhərinin 2030-ciilədək inkişaf planı reallaşmaqdadır. 2015-ci ildə Bakıda keçiriləcək ilk Avropa Oyunlarına hazırlıq çərçivəsində nəqliyyat infrastrukturu yenilənir və təkmilləşdirilir. Hökumət, həmçinin, 85 yeni su anbarının yaradılması və istifadə olunmuş çirkab suların təmizlənməsinə dair yeni plan hazırlayıb.

Forum iştirakçılarının diqqətinə çatdırılıb ki, Azərbaycan aqrar sektorda da böyük potensiala malikdir. Burada yetişdirilən bir çox meyvə-tərəvəz məhsulları əsasən Türkiyə, Rusiya və Gürcüstana ixrac olunur. Bu məhsullara Qərbi Avropada da tələbat var. Ölkə əhalisinin 40%-nin çalışdığı kənd təsərrüfatı karbohidratlardan sonra ikinci ən böyük ixrac sahəsi və qeyri-neft sektorunun lokomotividir. Ötən onillik ərzində bu sahədə hər il 5%-lik artıma nail olunub. Kənd təsərrüfatı texnikasına, yeni avadanlıq və digər vasitələrə sərmayə cəlb etmək üçün hökumət vergi güzəştləri siyasəti yürüdür. Azərbaycanda Belçika təcrübəsini tətbiq etmək üçün böyük imkanlar var.




# 2015-ci ildən bələdiyyələrdə yerli ödənişlər nağdsız şəkildə aparılacaq

*Milli Məclisin Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə «Vergilər» qəzetinə müsahibə vermişdir.*



***- Arif müəllim, Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərə əsasən, 2015-ci ilin yanvar ayından bələdiyyələrdə yerli ödənişlərin yığılması sahəsində ciddi təkmilləşdirmələr aparılması nəzərdə tutulur. Bu addımın atılması hansı zərurətdən irəli gəlir?***

- Ölkəmiz inkişaf edir, dövlət və qeyri-dövlət qurumlarının fəaliyyətində yeni texnologiyalar tətbiq olunur, idarəetmə ən müasir tələblər səviyyəsində qurulur, əhali arasında müasir ödəniş mədəniyyəti formalaşır. Şəffaflığı təmin etməyin əsas vasitələrindən biri kimi bütün əməliyyatların nağdsız yolla həyata keçirilməsi öz mühüm nəticələrini göstərməkdədir. Ona görə də bələdiyyələrin bu prosesdən kənarda qalması mümkün deyil. «Yerli vergilər və ödənişlər haqqında» Qanuna edilən dəyişiklikdən sonra yerli vergi və ödənişlərin ödənilməsi banklar, poçt rabitəsinin milli operatoru, habelə mövcud nağdsız ödəmə vasitələri ilə həyata keçiriləcək. «Bələdiyyələrin statusu haqqında» Qanuna edilən dəyişikliyə əsasən isə bələdiyyələr tərəfindən hüquqi və fiziki şəxslərin müraciəti əsasında 5 gündən gec olmayaraq onların yerli vergilər və ödənişlər üzrə borcları barədə arayış veriləcək.

***- Yeni qaydaların tətbiqi ilə bağlı müəyyən narahatlıq doğuran hallar varmı? Yerli özünüidarəetmə orqanları nağdsız bazarda iştirak etməyə tam hazırdırlarmı?***

- Bələdiyyələr bu prosesə start vermək üçün lazımi infrastruktura malik olmalıdır, hazırlıq işləri, maarifləndirici tədbirlər həyata keçirməlidirlər. Bələdiyyələr, adətən, hansısa təşkilatın, şəxslərin başının üstünü kəsib pul toplamaqla məşğul olub, normal vergi yığmaq mədəniyyətini formalaşdıra bilməyib. Bu qurumlar haqqında yerlərdə təsəvvür o qədər də yaxşı deyil. Vətəndaşlar ödənişlər etmək istəmir, problem də budur ki, bələdiyyə hansı işi görüb ki, biz də vergi verək. Ona görə də onlar ödənişlərlə bağlı münasibəti tamamilə dəyişməli, əhali ilə maarifləndirici işlər aparıb ödəniş mədəniyyəti formalaşdırmalıdırlar. Xüsusilə də nağdsız ödəniş mədəniyyəti lazımi səviyyədə olmadığı ucqar kənd rayonlarında buna daha çox diqqət ayrılmalıdır.

***- Vətəndaşlarda inam və etibar qazanmaq üçün bələdiyyələr hansı addımları atmalıdırlar?***

- Bələdiyyələr əhali ilə daha yaxından təmasda olmalı, onların problemlərinə qarşı həssaslıq göstərərək köməyini əsirgəməməli, yerlərdə infrastrukturun bərpası, yenidən qurulmasına diqqət göstərməlidir. Yerli özünüidarəetmə orqanları özlərinin imkanları çatmadığı halda, müvafiq icra qurumları qarşısında məsələ qaldırıb problemin həllinə nail olmalıdırlar.

***- Bələdiyyələrin hazırkı yığım səviyyəsi necədir?***

- Hesab edirəm ki, hazırkı ödənişlərin səviyyəsi bələdiyyələrin özlərini də qane etmir. Burada indiyədək mövcud olan bəzi texniki məsələlər də yığıma təsir göstərib. Yerli özünüidarəetmə orqanları indiyə kimi əsas maliyyə mənbələrindən biri olan daşınmaz əmlak vergisini yığa bilmirdi. Bunun da əsas səbəbi əmlakın qiymətinin müəyyənləşməsi ilə bağlı idi. Yəni vergi əmlakın inventar dəyəri əsasında tutulurdu. Bələdiyyə müraciət edəndə əmlak sahibi konkret qiymət göstərilməsini tələb edirdi və burada anlaşılmazlıq yaranırdı. Ancaq Vergi Məcəlləsinə edilmiş dəyişiklikdən sonra bu problem də həll olundu və konkret olaraq Bakı və regionlar üzrə verginin dərəcələri müəyyənləşib. Bələdiyyələr üçün artıq bu sahədən real vergi yığımına əsl baza yaranıb.

Yeri gəlmişkən, nağdsız ödənişlərlə, eləcə də bələdiyyələrlə bağlı digər qanun layihələrindən irəli gələn tələblər onlar üçün en həssas bir dövrə - yeni bələdiyyə seçkiləri ərəfəsinə təsadüf edir. Hazırda bu qurumlar əsas gücünü seçkilərə yönəldib, verilmiş tapşırıq və tövsiyələrin icrasına lazımi qədər vaxt sərf edə bilməyəcəklər. Yeni ildən qüvvəyə minəcək qanunların icrası, hazırkı problemlərin aradan qaldırılması, elektron xidmətlər və nağdsız ödənişlərlə bağlı maddi-texniki bazanın gücləndirilməsi, müasir standartların tətbiqinə hazırlıq və digər işlər onların qarşısında duran ciddi məsələlərdir. Bunların hər birini həll etmək asan deyil. Çox güman ki, onlar bir müddət çətinliklərlə üzləşəcəklər. Hətta nağdsız ödənişlərlə bağlı, çox güman ki, ilkin mərhələdə yerli ödəmələr poçt vasitəsilə mümkün olacaq.

***- Yerli özünüidarəetmə orqanlarının digər gəlir mənbələri ilə ələqədar məsələlərin həlli istiqamətində parlament səviyyəsində hansı işlər görülür?***

- Milli Məclisin Regional məsələlər komitəsində bu problemin həlli üzərində iş gedir. Qanun layihəsində bələdiyyələrin gəlir mənbələrinin artırılmasında mühüm rol oynaya biləcək bir istiqamət - yerli özünüidarəetmə orqanlarına subvensiyaların verilməsi öz əksini tapıb. Subvensiya məqsədli maliyyələşdirmənin həyata keçirilməsi üçün dövlət büdcəsindən verilən maliyyə vəsaitidir və təqdim olunan layihənin səmərəliliyi məqsədəuyğun hesab edildikdə onun maliyyələşdirilməsi üçün heç bir problem olmayacaq. Subvensiyalar əsas etibarilə yerli sosial müdafiə, ekoloji, iqtisadi və sosial inkişaf proqramlarının və layihələrin həyata keçirilməsi üçün nəzərdə tutulur.

Yeni maliyyə ayırmaları bələdiyyələr üçün kifayət qədər iş görməyə imkan verəcək. Bununla yanaşı, bələdiyyələrə maliyyə nəzarəti də gücləndiriləcək. Yeni ildən başlayaraq bələdiyyələrin seçicilər qarşısında illik hesabatı tələb olunacaq. İndiyə qədər onlar iki halda - qanunvericiliklə bələdiyyələrə verilmiş əlavə səlahiyyətlərin yerinə yetirilməsinə və dövlət büdcəsindən ayrılmış maliyyə vəsaitinin istifadəsinə dair hesabatlar verirdilər. Yeni qanun layihəsinə əsasən, bələdiyyələr ildə bir dəfə seçicilər qarşısında illik fəaliyyətinin yekununa dair hesabat verməli olacaqlar. Hesabat qeyri-qənaətbəxş sayıldıqda həmin bələdiyyənin fəaliyyəti dayandırılacaq.

***- Hesabatda vergi ilə bağlı məsələlər, yəni bələdiyyələrin yerli ödənişlərinin yığımına görə fəaliyyətinin qanedici olub-olmaması nəzərə alınacaqmı?***

- Hesabatda bələdiyyələrin fəaliyyətinin bütün istiqamətləri öz əksini tapacaq. Burada verginin yığılması, toplanan ödənişlərin büdcəyə köçürülməsi, necə xərclənməsi, maliyyə öhdəlikləri və digər amillər nəzərə alınacaq. Həmin detallar yerli özünüidarəetmə orqanının fəaliyyətinə veriləcək qiymətə təsirini göstərəcək. Sonəd qeyri-qənaətbəxş sayıldıqda Milli Məclisə təqdim olunacaq. Parlamentin müzakirəsindən sonra isə Mərkəzi Seçki Komissiyasına müraciət əsasında həmin bələdiyyənin fəaliyyətinin dayandırılması və yenidən seçki keçirilməsi barədə qərar qəbul ediləcək.

Hesab edirəm ki, bu qanun bələdiyyələrin məsuliyyətinin artırılması baxımından mühüm əhəmiyyət daşıyacaq.

***- Ümumiyyətlə, Milli Məclisin payız sessiyasında yerli özünüidarəetmə orqanları ilə bağlı hansı qanun layihələrinin müzakirəsi gündəlikdədir?***

- «Bələdiyyələrin əraziləri və torpaqları haqqında», «Azərbaycanda bələdiyyələrin siyahısı»nda dəyişikliklər edilməsi barədə» qanun layihələrinə nəzərdə tutulmuş dəyişikliklər və əlavələrlə bağlı müzakirələr keçiriləcək. Həmin qanunların qəbul edilməsi bələdiyyələrin məsuliyyətinin artmasına, seçici ilə bu qurum arasında normal münasibətlərin qurulmasına, şəffaflığın təmin edilməsinə və korrupsiya hallarının aradan qalxmasına müsbət təsir göstərəcəkdir.

***- Bir sıra ölkələrdə vergiləri yaxşı toplaya bilmədiyinə görə bələdiyyə vergilərinin müəyyən müddətdə vergi orqanları tərəfindən yığılması tətbiq olunur. Belə bir təcrübənin respublikamızda tətbiqi mümkündürmü?***

- Bəzi ölkələrdə bələdiyyə vergilərini müvafiq dövlət qurumları yığır. Bunun müqabilində həmin quruma komisyon haqq ödənilir və bu mexanizm özünü doğrultmuş çevik sistem halına gəlib. Qardaş Türkiyədə də belə bir sistem var. Azərbaycanın vergi orqanları vergi yığımları sahəsində çox peşəkar, təcrübəli və çevik fəaliyyət təcrübəsinə malik olduğuna görə, müəyyən bir dövr üzrə bələdiyyə vergilərinin yığımını onların səlahiyyətinə vermək mümkündür. Kadr bazası, vergiyığma sahəsində böyük təcrübəsi və səriştəsi onu deməyə əsas verir ki, vergi orqanı bələdiyyə vergilərinin yığım əmsalını xeyli yüksəltməyə qadirdir. Doğrudur, hələlik gündəlikdə belə bir məsələ yoxdur, amma nə vaxtsa belə bir mexanizmi tətbiq etməklə həm bələdiyyələrə aid vergilərin yığılmasında müsbət nəticə əldə etmək, həm də yığılan vəsaitlərin həcminin qat-qat yüksəlməsinə nail olmaq mümkündür.

***- 2015-ci ilin dövlət büdcəsi layihəsi yaxın günlərdə Milli Məclisdə müzakirəyə çıxarılacaq. Gələn ilin büdcə layihəsində bələdiyyələrlə bağlı hansısa mühüm dəyişikliklər gözlənilirmi?***

- Burada əsas dəyişiklik bələdiyyələrə dotasiyaların artırılması ilə bağlı ola bilər. Qanunvericiliyə əsasən, hər il yerli özünüidarəetmə orqanlarına büdcədən dotasiya ayrılır. 2014-cü ilin büdcə zərfindən bu məqsədlə cəmi 5,2 milyon manat ayrılıb. Mən ötən il büdcənin müzakirəsi zamanı da dedim ki, bələdiyyələrin maliyyə təminatını yaxşılaşdırmaq üçün dotasiyanın məbləğini artırmağa ehtiyac var. Əsas dəyişiklik isə 2015-ci ildən subvensiyaların ayrılması olacaq.

***- Xarici ölkələrdə yerli özünüidarəetmə orqanlarına dotasiyadan daha çox investisiya məqsədli vəsaitlər, o cümlədən uzunmüddətli kreditlər verilir. Azərbaycanda bələdiyyələrə kreditlərin verilməsi mümkündürmü?***

- Bələdiyyələrə kredit verilməsi dünya ölkələrində tətbiq olunan əsas mexanizmlərindən biridir. Bir çox ölkələrdə bu, sahibkarlığa kredit verən maliyyə institutları vasitəsilə həyata keçirilir. Ölkəmizdə Sahibkarlığa Kömək Milli Fondundan verilən aşağı faizli kreditlərlə bələdiyyələri də maliyyələşdirmək olar. Bu kreditlər vasitəsilə hansısa kənddə içməli su xəttinin çəkilişi, çörəkbişirmə sexinin tikintisi, yaxud istehsal və emal müəssisəsinin yaradılması mümkündür...

*Müsahibəni hazırladı:*
**Elbrus CƏFƏRLİ**



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

## Daşınmaz əmlaka vergi

### *Bu məsələ beynəlxalq təcrübədə necə həll edilir?*

Müasir dövrdə daşınmaz əmlakın vergiyə cəlb olunması sahəsində diqqət mərkəzində olan məsələlər bu verginin ödəyicilərinin, vergi dərəcəsinin, vergitutma bazasının, verginin hesablanması və ödənilməsi qaydalarının, vergi dərəcələrinə tətbiq edilən əmsalların, verginin ödənilməsində dövlətin və yerli özünüidarəetmə orqanlarının rolunun müəyyən edilməsi ilə bağlıdır.

Dünyanın əksər ölkələrində daşınmaz əmlaka görə verginin ödəyicilərinə həm fiziki şəxslər, həm də hüquqi şəxslər aid edilir. Yalnız Honq-Konq istisna təşkil edir, orada bu verginin ödəyicilərinə təkcə hüquqi şəxslər aid olunur və bundan əlavə, daşınmaz əmlaka görə vergi yalnız həmin əmlakdan əldə edilən mənfəətə görə ödənilir. Daşınmaz əmlakın vergitutma obyektinin müəyyən olunmasına dünya təcrübəsində müxtəlif yanaşmalar mövcuddur. Lakin bir qayda olaraq, daşınmaz əmlak vergisinin vergitutma obyektinə binalar, qurğular və torpaq sahələri aid edilir. Yaponiyada, Almaniyada, Macarıstanda, Polşada, Çexiyada, Tailandda, Rusiyada və dünyanın bir sıra digər ölkələrində vergiyə cəlb olunan daşınmaz əmlaka həm torpaq sahələri, həm də binalar aid edilir. Bu təcrübə hazırda Dünya Bankının ekspertləri tərəfindən öyrənilir və onun bütün ölkələrdə tətbiq edilməsi təklif olunur. Yuxarıda adları verilən ölkələrin bəzilərində, məsələn, İrlandiyada kənd təsərrüfatı təyinatlı torpaqlar daşınmaz əmlak vergisinin vergitutma obyektinə aid edilir.

Daşınmaz əmlak vergisinin dərəcəsi müxtəlif ölkələrdə qanunvericiliyin və həyata keçirilən iqtisadi siyasətin xüsusiyyətlərindən asılı olaraq, müxtəlif formada və ölçülərdə müəyyən edilir. Bəzi ölkələr öz daxilində əmlakın yerləşdiyi ərazidən asılı olaraq dəyişən vergi dərəcələri, bəziləri isə sabit dərəcələr tətbiq edirlər. Dəyişən vergi dərəcələri, əsasən, ərazidəki sosial və iqtisadi vəziyyətdən və daha çox fayda verə bilməsi üçün əmlakın əlverişli yerləşməsindən asılı olaraq yüksək və ya aşağı vergi dərəcələri şəklində müəyyən olunur və bunlar yerli özünüidarəetmə orqanlarına qanunla verilmiş səlahiyyətlər əsasında həyata keçirilir.

### *Təcrübə göstərir ki, vergi dərəcələrinin bu və ya digər hədlərinin müəyyən edilməsi vergi daxilolmalarına tələbatdan və iqtisadi mədəniyyətdən irəli gəlir*

Ümumiyyətlə, təcrübə göstərir ki, daşınmaz əmlak vergisinin tətbiqi zamanı daha yüksək vergi dərəcəsinin müəyyən olunması məqsədəmüvafiq sayılmır. Əks halda, bu, əhalinin müəyyən kateqoriyaları üçün vergi güzəşti mexanizminin müəyyən olunmasında problem yarada bilər, bundan əlavə, yüksək vergi dərəcəsi əhalidə müəyyən narazılıqların yaranmasına səbəb olur.

Dünyanın əksər ölkələrində daşınmaz əmlak vergisinin dərəcəsi, adətən, vergitutma obyektinin dəyərinin 1%-indən aşağı olur. Lakin bəzi ölkələrdə bu, istisna haldır. Məsələn, Pakistanın bir neçə əyalətində üçpilləli vergi dərəcələri tətbiq olunur və yüksək vergi dərəcəsi 20-26% həcmində müəyyən edilir. Sinqapurda yaşayış binaları 4%, digər təyinatlı daşınmaz əmlaklar isə 12% dərəcə ilə vergiyə cəlb edilir. Təcrübə göstərir ki, vergi dərəcələrinin bu və ya digər hədlərinin müəyyən edilməsi vergi daxilolmalarına tələbatdan və iqtisadi mədəniyyətdən irəli gəlir. Dünyada daşınmaz əmlakın növündən asılı olaraq müxtəlif vergi dərəcələrinin tətbiq olunması halları da mövcuddur. Buna misal olaraq Almaniyanın, Rusiyanın və Kosovanın təcrübəsini göstərmək olar. Daşınmaz əmlak vergisinin vergitutma bazasında operativ düzəlişlərin aparılması məqsədilə əmlak satılarkən satış qiyməti müvafiq dövlət xidməti orqanlarında qeydə alınır və bu məlumat fiskal kadastra da daxil edilir. Lakin bir çox ölkələrdə bu qaydaya riayət olunmur.

Daşınmaz əmlak vergisinin inzibatçılığının səmərəliliyinin artırılmasında qeyd olunan məsələnin həlli böyük əhəmiyyət kəsb edir. Onu da vurğulamaq lazımdır ki, daşınmaz əmlakın dəyərinin surətlə artdığı bir şəraitdə vergi dərəcəsində düzəliş edilməsinin mümkün olmaması həm də əhalinin narazılığına gətirib çıxarır. Məsələn, ABŞ-ın Kaliforniya ştatında bu cür hadisə baş vermişdi.

Təcrübə göstərir ki, dünyada gedən inflyasiya prosesi zamanı büdcə daxilolmalarının artırılması məqsədilə daşınmaz əmlak vergisinin dərəcəsini yüksəltmək olar. Bu, həm də daşınmaz əmlak vergisinin sosial və iqtisadi şəraitdən asılı olaraq daha çevik olmasını təmin edir. İdeal şəraitdə vergi bazası hər il yenidən qiymətləndirilməlidir. Lakin təcrübədə bu, o qədər də asan məsələ deyildir. Çünki bu məqsədlər üçün büdcədən sərbəst vəsaitlərin ayrılması bəzən problemli olur. Buna görə də əmlakın yenidən qiymətləndirilməsini 3-5 ildə bir dəfə həyata keçirmək olar. Əmlakın dəyərində yüksək artımlar müşahidə edildikdə, təbii ki, büdcə gəlirləri artmış olur. Lakin bu zaman verginin sosial rolu nəzərə alınaraq vergi dərəcəsinin aşağı salınması yaddan çıxarılmamalıdır. Vergitutma obyektinin dəyərinin müəyyən olunması isə satış dəyərinin müqayisə edilməsinə, yəni əmlakın satışı zamanı bazarda tətbiq olunan qiymətlərin öyrənilməsinə, əmlakdan daha səmərəli istifadə zamanı əldə olunan gəlirin kapitallaşmasına və ya əmlakın tam bərpası üçün tələb olunan xərclərin hesablanmasına əsaslanır.

Qeyd etmək lazımdır ki, müasir dövrdə dünyanın əksər ölkələrində daşınmaz əmlak vergisinin vergitutma bazası müəyyən edilərkən daha çox bazar qiymətindən istifadə olunur ki, bu da öz növbəsində, əmlak sahiblərini həmin əmlakdan daha səmərəli istifadə etməyə məcbur edir.

## İstanbulda Dünya İqtisadi Forumu keçirilib

«Regional İnkişaf üçün Əlavə İmkanların Yaradılması» mövzusuna həsr olunmuş Forumda Azərbaycan Respublikasını maliyyə naziri Samir Şərifov təmsil edib. 70 ölkədən 500-dən çox yüksək vəzifəli dövlət və hökumət rəsmiləri, iş adamları, beynəlxalq maliyyə institutları və vətəndaş cəmiyyəti nümayəndələri, tanınmış alim və ekspertlərin iştirak etdikləri forum çərçivəsində «Enerji dünyasının dəyişən şəkli: bölgənin yeni inkişaf hədəfləri», «Fiziki və rəqəmsal infrastrukturun gələcəyi» və s. mövzularda sessiyalar təşkil olunub.

Davos İqtisadi Forumu isveçrəli professor Klaus Şvebsin təşəbbüsü ilə 1971-ci ildə yaradılıb. 1987-ci ildən etibarən Davos İqtisadi Forumu Dünya İqtisadi Forumu adlandırılmağa başlanıb. Azərbaycan Respublikası 1995-ci ildən Dünya İqtisadi Forumunun fəal iştirakçısıdır. Son illərdə Azərbaycanla bu qurum arasında əməkdaşlıq inkişaf edərək yeni mərhələyə daxil olmuş, 2013-cü ilin aprelində Dünya İqtisadi Forumu Prezident İlham Əliyevin iştirakı ilə Bakı şəhərində keçirilmişdir.

Azərbaycan Respublikasında iqtisadi sahədə həyata keçirilən uğurlu islahatlar Dünya İqtisadi Forumu tərəfindən də izlənilir, ölkəmizdə yaradılan əlverişli investisiya və biznes mühiti bu qurum tərəfindən beynəlxalq miqyasda xüsusilə qeyd edilir, hesabatlarda bu amil daim ön plana çəkilir. Azərbaycan Dünya İqtisadi Forumunun bu günlərdə açıqlanmış «Qlobal rəqabətqabiliyyətlilik hesabatı 2014-2015» adlı hesabatında daha bir pillə irəliləyərək 144 ölkə arasında 38-ci yerə yüksəlmişdir.



## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Vurulmuş zərərin əvəzi

***Sadələşdirilmiş verginin ödəyicisiyəm. Sahibkarlıq fəaliyyətimin həyata keçirilməsi zamanı mənə vurulmuş zərərin əvəzi ödənilmişdir. Bu məbləğ vergiyə cəlb olunurmu?***

Mülki Məcəllənin 21.2-ci maddəsinə əsasən, zərər dedikdə, şəxsin pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və ya çəkməli olduğu xərclər, əmlakından məhrum olması və ya əmlakının zədələnməsi (real zərər), habelə hüququ pozulmasaydı, həmin şəxsin adi mülki dövriyyə şəraitində əldə edəcəyi gəlirlər (əldən çıxmış fayda) başa düşülür. Bu Məcəllənin 21.1-ci maddəsinə əsasən, zərərin əvəzinin ödənilməsini tələb etmək hüququna malik olan şəxs ona vurulmuş zərərin əvəzinin tam ödənilməsini tələb edə bilər, bu şərtlə ki, qanunda və ya müqavilədə zərərin əvəzinin daha az miqdarda ödənilməsi nəzərdə tutulmasın.

Vergi Məcəlləsinin 13.2.12-ci maddəsində zərərin ödənilməsi şəklində alınmış məbləğ satışdankənar gəlirlərə aid edilmişdir. Qeyd olunan maddəyə əsasən, satışdankənar gəlirlər - digər müəssisələrin fəaliyyətində payçı kimi iştirakdan gəlir, müəssisəyə məxsus səhmlər, istiqrazlar və digər qiymətli kağızlardan əldə olunan gəlirlər, habelə mal və xidmət (iş) istehsalı və satışı ilə bilavasitə bağlı olmayan əməliyyatdan götürülən digər gəlirlər, o cümlədən cərimə və zərərin ödənilməsi şəklində alınmış məbləğ, xarici valyuta əməliyyatları üzrə artan məzənnə fərqi, qanunvericiliyə müvafiq iddia müddəti keçmiş kreditor və deponent borc məbləğləridir.

Vergi Məcəlləsinin 219.1-ci maddəsinə əsasən, hesabat dövrü ərzində vergi ödəyicisi tərəfindən (218.1.1-ci maddədə nəzərdə tutulmuş vergi ödəyiciləri istisna olmaqla) təqdim edilmiş mallara (işlərə, xidmətlərə) və əmlaka görə əldə edilmiş ümumi hasilatın, habelə satışdankənar gəlirlərin (ödəmə mənbəyində vergi tutulmuş gəlirlər istisna edilməklə) həcmi vergitutma obyektidir. Vergi Məcəlləsində sadələşdirilmiş verginin ödəyicisinə vurulmuş zərərin əvəzinin ödənilməsi şəklində təqdim olunan məbləğin sadələşdirilmiş vergidən azad olunması barədə müddəa nəzərdə tutulmadığından, qeyd olunan məbləğ Vergi Məcəlləsinin 220-ci maddəsinə uyğun olaraq vergiyə cəlb olunur.

# «Birlikdə daha yaxşı olaq!»

*Vergi ödəyicilərinə xidmət mərkəzlərinin fəaliyyətinin qiymətləndirilməsi üçün keçirilən anket sorğusunun devizi belədir*

*Vergi ödəyicilərinə xidmət mərkəzlərinin yaradılması ölkədə vergilərin könüllü ödənilməsi sisteminin inkişaf etdirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması məqsədi daşıyır. Bu mərkəzlər xüsusilə regionlarda fəaliyyət göstərən vergi ödəyicilərinin işinin asanlaşdırılmasında mühüm rol oynayır.*

Mərkəzlərdə vergi xidmətlərinin müasir standartlara uyğun göstərilməsi mühüm şərtlərdəndir. Burada vergi qanunvericiliyinin tətbiqi, vergilər barədə məlumat və izahatların verilməsi, vergi ödəyicilərinin və təsərrüfat subyektlərinin qeydiyyatı, qeydiyyatdan çıxarılması, qeydiyyat məlumatlarının dəyişdirilməsi, vergi bəyannamələri ilə bağlı xidmətlərin göstərilməsi, bəyannamələrin, hesabatların, ərizə və digər sənədlərin vergi orqanına göndərilməsi, NKA-ların qeydiyyatı və qeydiyyatdan çıxarılması, hazır sənədlərin və arayışların alınması, «ASAN imza»nın, eləcə də istifadəçi kodu, şifrə və parolun əldə edilməsi və s. xidmətlər göstərilir. Hazırda respublika üzrə fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzlərinin sayı 54-ə çatıb. Onlardan 6-sı paytaxtın, digərləri isə regionların payına düşür.

Mərkəzlərdə göstərilən xidmətlərdən vergi ödəycilərinin məmnun qalmasına xüsusi önəm verilir. Bu məqsədlə vergi ödəyicilərinə göstərilən xidmətdən ödəyicilərin razı qalıb-qalmadığını müəyyənləşdirmək üçün hər bir vergi ödəyicinə mərkəz əməkdaşı tərəfindən göstərilən xidmətin qiymətləndirilməsi təklif edilir.

Bundan əlavə, vergi ödəyicilərinə xidmət mərkəzlərində göstərilən xidmətin səviyyəsinin və keyfiyyətinin müəyyən edilməsi və ölçülməsi məqsədi ilə «Birlikdə daha yaxşı olaq!» devizi ilə anket sorğusu keçirilir. Sorğuda iştirak etmək üçün vergi ödəyiciləri www.taxes.gov.az saytına daxil olaraq, «vergi ödəyicilərinə xidmət mərkəzləri» bölməsini seçərək sorğuda iştirak edə bilərlər. Sorğuda xidmət mərkəzinə müraciət tezliyi, vergi ödəyicisinin müraciət etdiyi mərkəzin işinin qiymətləndirilməsi, xidmət mərkəzləri barədə məlumatın haradan əldə edilməsi, mərkəzlərin iş rejiminin vergi ödəyiciləri tərəfindən necə qiymətləndirilməsi, vergi ödəyicisinin növbədə gözlədiyi vaxt, mərkəzlərdə xidmətin təşkili, icra olunma müddəti, təmsilçilərin işinin qiymətləndirilməsi kimi mövzulara dair suallara cavab vermək təklif olunur. Vergi ödəyiciləri sorğu vasitəsilə xidmət mərkəzində göstərilən xidmətlərin təkmilləşdirilməsi üçün öz arzu və təkliflərini də qeyd edə bilərlər.




**AYTƏN**

# Azərbaycanda sığorta sisteminin iqtisadi və sosial proseslərdə rolu

*Dünyanın hər yerində sığorta sisteminin inkişafı iqtisadiyyatın digər sahələrinin inkişafı ilə bütöv götürülür. Sığorta elə bir iqtisadi sistemdir ki, onun inkişaf səviyyəsi iqtisadiyyatla yanaşı digər sahələrə, hətta insanların həyat tərzinə birbaşa təsir göstərir. Son bir neçə ildə Azərbaycanın sığorta bazarında baş verən proseslərlə bağlı suallarımızı iqtisadçı ekspert, «Başak-İnam Sığorta Şirkəti» ASC-nin Biznesin inkişafı departamentinin direktoru Hikmət Allahverdi cavablandırır.*

***- Hikmət müəllim, ölkəmisdə hazırkı sığorta bazarının ümumi mənzərəsi necə görünür?***

- Sığorta sektorunda rəqəmlər dəyişir, sığorta haqlarında və ödənişlərində artma-azalmalar qaçılmaz olur. Lakin bu bir faktdır ki, sektor əvvəlki dövrlərdəki kimi «süst», kimsəni maraqlandırmayan sahə olmaqdan çıxıb. Artıq sığorta sektoru haqqında mətbuat daha çox yazır, əhali nisbətən məlumatlıdır, qanunvericilik bazası, demək olar ki, təkmil hala gətirilib, hökumət bu sahədəki məsələlərə daha çevik yanaşır. Bu sahədə yeniliklərin tətbiqi intensivləşib, sığorta şirkətləri ofislərindən əhalinin arasına çıxmağın vacibliyi qənaətinə gəlib, «etirazçı», «şikayət edən», «fərqli xidmət tələb edən» müştərilər çoxalıb ki, bu da müsbət haldır.

Rəqəmlərə gəldikdə, ən son açıqlanan göstəricilərə - bu ilin ilk 8 ayına nəzər salsaq, görərik ki, ümumilikdə sığorta şirkətləri 283,3 mln. manat sığorta haqqı toplayıb (ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,6% artımla), 103,5 mln. manat ödəniş (ötən ilin müvafiq dövrü ilə müqayisədə 33% artımla) həyata keçiriblər. Bu dövr ərzində sığorta şirkətləri topladıqları hər 100 manatın 36,55 manatını müştərilərinə qaytarmışlar (təbii ki, bu göstərici ayrı-ayrı şirkətlər üzrə fərqlidir).

Daha dəqiq mənzərə yaransın deyə, *həyat və qeyri-həyat* sığortaları üzrə fəaliyyət göstərən şirkətlərin göstəricilərinə ayrı-ayrılıqda baxmaq daha doğru olardı. Həyat sığortası məhsullarının satışı ilə məşğul olan şirkətlər (onlar 3 şirkətdir) özlərinin inkişaf dövrlərini yaşayırlar. Bu şirkətlər 2014-cü ilin 8 ayı ərzində 69,8 mln. manat sığorta haqqı toplayıblar ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 56,5% çoxdur. Sığorta ödənişlərindəki artım isə daha çoxdur; bu rəqəm 6 dəfə artaraq 20,41 mln. manat təşkil edib. Bu şirkətlər topladıqları hər 100 manatın 29,2 manatını sığorta ödənişi kimi sığortalılara qaytarıblar.

Qeyri-həyat sığortaları üzrə fəaliyyət göstərən 25 şirkət üzrə göstəricilər isə ötən ilin müvafiq dövrü ilə müqayisədə azalma nümayiş etdirib. Bu şirkətlər cari ilin ilk 8 ayı ərzində ümumilikdə 213,5 mln. manat sığorta haqqı toplayıblar ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,5% azdır. Sığorta ödənişləri isə 10,7% artaraq 83,12 mln. manat olub. Qeyri-həyat sığortaları üzrə fəaliyyət göstərən şirkətlər bu dövr ərzində topladıqları hər 100 manat sığorta haqqının 39 manatını müştərilərinə ödəniş olaraq qaytarıblar və nəzərə almaq lazımdır ki, müqavilələr davam edir.

***- Azərbaycanda ən çox müraciət olunan sığorta növləri hansılardır?***

- Əhali arasında ən populyar və alınan sığorta növü əksəriyyətin «İcbari avtomobil sığortası» kimi adlandırdığı «Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası»dır. Avtomobil (kasko) sığortası, mənzillərin sığortası, səyahət sığortası daha çox satılan sığorta növlərindəndir. Əhalinin bəzi qruplarını isə tibbi sığorta maraqlandırır ki, bunu da fərdi qaydada



bütün şirkətlər təklif etmir və ya daha baha qiymətə təklif edir. Hüquqi şəxslərə gəldikdə isə onların istifadə etdiyi növlərə yuxarıda əhali üçün sadalanan sığorta növlərinə əlavə olaraq məsuliyyət sığortalarını, yük sığortasını, inşaat sığortasını və s. göstərmək olar.

***- Müştəri sığorta şirkətini hansı meyarlar əsasında seçməlidir?***

- Bu məsələdə qəbul edilmiş bəzi meyarlar var: sığortaçının maliyyə göstəriciləri, təkrar sığortaçıları, topladığı sığorta haqları, verdiyi sığorta ödənişləri, işçi heyətinin peşəkarlığı və s. Amma gəlin məsələyə bir az fərqli yanaşaq. Tutaq ki, sadə bir vətəndaş əmlakını sığortalamaq istəyir. O, 25 şirkət haqqında bu məlumatları toplamağa nə qədər maraqlıdır və bu məlumatlar hər kəs üçün əlçatandırmı? Və yaxud hansısa hüquqi şəxs əmlakını, işçilərinin sağlamlığını, hər hansı layihəsini ayrı-ayrılıqda və ya bunların hamısını sığortalamaq istəyir və bütün şirkətlər üzrə bu göstəriciləri araşdırmaq imkanına malikdir. Amma təbii ki, 100 milyonlarla məsuliyyət məbləği qarşısında 5 milyon manatlıq nizamnamə kapitalı kifayət qədər kiçik rəqəmdir. Bu halda başqa bir yanaşma ola bilər. Onsuz da nəzarətedici orqan sığorta şirkətlərinin fəliyyətini izləyir, hər hansı göstərici normativdən aşağı olduqda, hər hansı qanunazidd fəaliyyət aşkar edildikdə həmin şirkətin fəaliyyəti məhdudlaşdırılır və ya lisenziyası geri alınır. Deməli, fəaliyyət göstərən şirkətlərdən, necə deyərlər, «sizin ayağınıza gələn», sizə fərdi yanaşan, ən əsası, sizə vəziyyəti izah edib məhsulla bərabər əlavə xidmətlər təklif edən, şəffaf və daha «əlçatan» sığorta şirkətini seçməlisiniz.

***- Sığorta müqaviləsi bağlanarkən ən çox hansı incəliklərə diqqət yetirilməlidir?***

- Deyək ki, siz sığorta şirkətini yuxarıdakı meyarlar üzrə seçmisiniz. Sığorta növləri üzrə isə fərqli nüanslar ortaya çıxır. Ən populyar sığorta növlərindən «Fiziki şəxslərin sahibliyində olan minik avtomobillərinin tam sığortası», qısaca, «kasko» üzrə diqqət yetirilməli məsələlərə baxsaq, ümumiyyətlə, ilk növbədə, müqavilədə göstərilən «istisnalar»la tanış olmaq lazımdır, çünki bu zaman hansı hallarda ödənişin verilməyəcəyi aydın göstərilir.

Qismən və ya tam zərərlərdə azadolma məbləği (franşiza) nə qədərdir? Əgər siz ən xırda hadisədə belə, zərərinizin sığorta şirkəti tərəfindən ödənilməsini istəyirsinizsə, azadolma məbləğinin olmamasına və ya az olmasına çalışmalısınız və bu halda daha çox sığorta haqqı ödəməli olacaqsınız.

Hadisə zamanı dəyişilən hissələrə köhnəlmə tətbiq olunacaqmı? Avtomobilin istifadə tərzi nədir: şəxsi məqsədlər üçün və ya kommersiya məqsədilə istifadə olunacaq? Çünki bəzən taksi fəaliyyəti ilə məşğul olan şəxslər müqavilə imzalanan vaxt bunu gizli saxlayır və hadisə zamanı ortaya çıxan bu məsələ ödənişdən imtinaya səbəb olur.

Avtomobili idarə edən şəxslər də vacib tərəf sayılır. Müqavilə bağlanan zaman fərqli variantlar qeyd edilə bilər. Yəni müştəri: hadisə zamanı avtomobilin kimin istifadəsində olduğu təqdirdə ödəniş veriləcəyi; hadisə zamanı dəymiş zərərin hansı təmirxanalarda bərpa olunacağı; xidmətin operativliyinin necə təmin olunacağı kimi şərtlərdə seçim edə bilər.

***- Banklarda avtomobil kreditləşməsinin həcminin azalması sığorta şirkətlərinin banklardan asılılığını azaldırmı?***

- Fikrimcə, bu məsələyə də birtərəfli yanaşmaq doğru deyil. Əslində, burada üstün tərəf olmamalıdır: sığorta haqqının toplanması baxımından sığorta şirkəti bankdan asılıdırsa, kredit öhdəliyinin sığorta hadisəsi nəticəsində yerinə yetirilməməsi baxımından bank sığorta şirkətindən asılıdır. Azərbaycanda sığorta vərdişlərinin yaranmasında bankların rolunu danmaq olmaz. Avtomobil kreditləşməsinin vüsət alması və girov qoyulmuş avtomobillərin bankın tələbilə sığortalanması, hadisə zamanı ödənişlər əhalidə sığortaya inamı artırır. Təbii ki, burada xoşagəlməz hallar da var, bank öz növbəsində kredit götürənin xərclərinin az olması üçün girovu tam deyil, kredit məbləği həcmində sığortalayır, sığorta haqqı az olsun deyə, yüksək franşizalı müqavilələr satılır, müştəriyə sığorta şərtləri tam izah edilmir və s. Konkret sualınıza gəldikdə, qeyri-həyat sığorta şirkətlərində geriləmənin ən əsas səbəblərindən biri avtomobil kreditləşməsinin azalmasıdır. Hazırda şirkətlər bu itkilərini kompensasiya etmək sahəsində fəaliyyət göstərirlər. Bazara fərqli sığorta məhsulları təqdim edilməli, əhalidə bu məhsullara maraq yaradılmalıdır. Sığorta portfelini geniş məhsul çeşidləri üzrə formalaşdıran şirkətlər bu vəziyyətdən az zərərlə və ya qazancla çıxacaqlar. Bu baxımdan, müzakirəsi gedən «Kənd təsərrüfatı sığortaları» və «icbari tibbi sığorta» haqqında qanunların qəbulu və tətbiqi sığorta sektoru üçün «oksigen» rolunu oynaya bilər.

***- Sığorta agentliklərindən fəaliyyətləri ilə bağlı hesabat tələb olunmasında məqsəd nədir?***

- Dövlət Sığorta Nəzarəti Xidmətinin açıqlamalarına əsaslanaraq deyə bilərəm ki, bu, bir nəzarət formasıdır. Bu hesabatlar əsasında vacib statistik baza formalaşacaq ki, bazanın təhlili gələcəyə baxışı formalaşdırmaqda böyük rol oynayacaq və bu hesabatların tələb edilməsi sığorta agentlərinə məsələlərə daha peşəkar yanaşmağı aşılayacaq, müştərilərinin çoxalacağı halda informasiya texnologiyalarının tətbiqini zəruri edəcək.

Bu hesabatlarda sığorta agentinin sığorta sinifləri üzrə bağladığı müqavilələrin sayı, hesablanmış sığorta haqları və hesablanmış komisyon muzd əks olunmalıdır. Sığorta agenti əməkdaşlıq etdiyi hər bir şirkət ilə bağlı bu məlumatları ayrılıqda və rübdə 1 dəfə, növbəti rübün ilk 20 günü ərzində təqdim etməlidir.

**Fəxriyyə İKRAMQIZI**

# MONEYVAL-ın qiymətləndirmə hesabatının ilkin müzakirəsi keçirilib

Fransanın Strasburq şəhərində Azərbaycanda cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə (PY/TMM) qarşı fəaliyyət sisteminin IV raund qiymətləndirilməsi üzrə hesabat layihəsinin ilkin müzakirəsi keçirilib. Müzakirədə Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri Rüfət Aslanlının rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti iştirak edib.

Komitədən bildirilib ki, tədbir çərçivəsində Azərbaycan nümayəndə heyəti ilə Avropa Şurasının Pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı tədbirlərin qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsinin (MONEYVAL) qiymətləndirmə missiyası arasında Azərbaycanda PY/TMM sahəsində mövcud vəziyyətin, hökumətin həyata keçirdiyi tədbirlərin və əldə edilmiş inkişafların hesabatda obyektiv əks olunması istiqamətində intensiv danışıqlar aparılıb, missiyaya əsaslandırılmış faktlar təqdim olunub.

Konstruktiv məcrada keçən müzakirələrin nəticəsi olaraq, Azərbaycan nümayəndə heyətinin arqumentləşdirilmiş qeydləri nəzərə alınmaqla, hesabat layihəsinin MONEYVAL-ın bu ilin dekabr ayında keçiriləcək növbəti plenar iclasında müzakirəyə çıxarılması barədə razılıq əldə edilib.

Qeyd edək ki, MONEYVAL üzv ölkələrdə yerli PY/TMM sisteminin beynəlxalq tələblərə uyğunluğunun dövri olaraq qiymətləndirilməsini həyata keçirir. Bu məqsədlə təşkilatın qiymətləndirmə missiyası bu il fevralın 17-dən 22-dək Bakıda səfərdə olub.

# İnteraktiv vergi xidmətləri

*Ölkə başçısının «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» fərmanına əsasən, Vergilər Nazirliyi tərəfindən 60 elektron xidmətin göstərilməsi nəzərdə tutulub. Bu yaxınlarda istifadəyə verilən yeni 4 elektron xidmətlərlə Vergilər Nazirliyi tərəfindən göstərilən xidmətlərin sayı 58-ə çatdı. Bunlar - «Vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) onlayn qeydiyyatı», «Vergi ödəyicisinin filialının, nümayəndəliyinin onlayn qeydiyyatı», «Vergi ödəyicisinin filialının, nümayəndəliyinin onlayn qeydiyyatdan çıxarılması» və «ƏDV məqsədləri üçün qeydiyyatın onlayn ləğv edilməsi» xidmətləridir.*

***«ƏDV məqsədləri üçün qeydiyyatın onlayn ləğv edilməsi»***

Bu xidmət əlavə dəyər vergisi (ƏDV) ödəyicilərinin ƏDV məqsədləri üçün qeydiyyatının elektron qaydada ləğv edilməsini əhatə edir. Elektron xidmət ödənişsizdir və yerinə yetirilmə müddəti 30 gündür. Bu xidmətin istifadəçiləri Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada ƏDV məqsədləri üçün qeydiyyata alınmış hüquqi və fiziki şəxslərdir.

Xidmətin göstərilməsi üçün vergi ödəyicisinin ƏDV məqsədləri üçün qeydiyyatının ləğv edilməsi barədə ərizə tələb olunur. Xidmətin təqdim edildiyi elektron ünvandan (www.e-taxes.gov.az) ərizədə olan məlumatlar interaktiv şəkildə vergi ödəyicisi tərəfindən sistemə daxil edilir. Lakin bunun üçün istifadəçinin Vergilər Nazirliyi tərəfindən verilmiş şifrə və parolu və ya gücləndirilmiş elektron imzası olmalıdır. Bunlardan istifadə etməklə sistemə daxil olduqda istifadəçiyə təklif olunan ərizə formasını doldurmaq və təsdiq etmək imkanı yaranır. Ərizə iş vaxtı başa çatdıqdan sonra və ya qeyri-iş günündə sistemə daxil edilmişdirsə, bu halda onun icrası həmin gündən sonrakı ilk iş gününün əvvəlində həyata keçirilir.

ƏDV məqsədləri üçün qeydiyyatın ləğv edilməsi barədə ərizə İnternet Vergi İdarəsi portalının «Onlayn kargüzarlıq» bölümü üzərindən işlənilir. Bu məqsədlə «Yeni müraciət» düyməsi sıxılır və açılan pəncərədə «Kimə» siyahısından - Vergilər Nazirliyi, «Müraciətin növü» siyahısından - Ərizə, «Sənədin növü» siyahısından - ƏDV qeydiyyatının ləğv olunması ərizəsi seçilir və «Qəbul» düyməsi sıxılır. Açılan ekranda siyahıdan ƏDV qeydiyyatının ləğv olunmasının səbəbi seçilir; ləğv tarixi və ƏDV-nin ləğvetmə tarixinə vergi ödəyicisinin sahibliyində qalan malların məbləği daxil edilir. ƏDV məqsədləri üçün ləğvlə bağlı bütün əməliyyatlar başa çatdıqdan sonra «İrəli» düyməsi sıxılır. Bu halda daxil edilmiş məlumatların yoxlanılması üçün təsdiqləmə ekranı gəlir. İstifadəçi məlumatların doğruluğuna əmin olduqda, onu təsdiqləmək üçün «Qəbul» düyməsini basır. Əks halda, imtina etmək üçün «İmtina» düyməsi sıxılır.




Təsdiqdən sonra ekrana «Vergi ödəyicisinin ƏDV məqsədləri üçün qeydiyyatının ləğv edilməsi haqqında ərizə»nin icraya qəbul edilməsi barədə bildiriş çıxır. Sistem tərəfindən vergi ödəyicisinin ƏDV məqsədləri üçün qeydiyyatda olub-olmaması yoxlanılır. Əgər vergi ödəyicisi ƏDV qeydiyyatında deyilsə, ərizənin icraya qəbul edilməsindən imtina edilir. Vergi ödəyicisinin ƏDV məqsədləri üçün qeydiyyatı Vergi Məcəlləsinin 158.2-ci bəndinə əsasən ləğv olunduğu halda, əvvəlki tam 12 təqvim ayı ərzində ƏDV-yə cəlb edilən dövriyyə 60000 manatdan çox olduqda ərizənin icraya qəbul edilməsindən imtina olunur. Bu məsələlər sistem tərəfindən avtomatik nəzarətdə olur və ekrana müvafiq mesajlar çıxarılır. Elektron xidmətin göstərilməsi zamanı vergi öədyicisinin ƏDV məqsədləri üçün qeydiyyatda olması və əvvəlki tam 12 təqvim ayı ərzində ƏDV-yə cəlb edilən dövriyyənin 60 min manatdan az olmasına Vergilər Nazirliyinin proqram təminatı vasitəsilə onlayn qaydada nəzarət edilir. Nazirliyin vəzifəli şəxsi tərəfindən təqdim olunmuş ərizə məlumatları, o cümlədən ləğvetmə vaxtı sahibliyində qalan malların qalığı, bəyannamələrin təqdim edilməsi, istifadə edilməmiş vergi hesab-fakturalarının aidiyyəti üzrə təhvil verilməsi, vergi ödəyicisinin fəaliyyətinin dayandırılması, ƏDV-yə cəlb olunan əməliyyatların aparılmasının dayandırılıb-dayandırılmaması və əvvəlki tam 12 təqvim ayı ərzində ƏDV-yə cəlb edilən dövriyyə dəqiqləşdirilir.

İmtinaya əsas olmadıqda, vergi ödəyicisinin ƏDV məqsədləri üçün qeydiyyatının ləğv edilməsi ərizəsi vergi orqanında icra üçün qəbul edilir.

**AYTƏN**

# «Asan imza» işgüzar mühitə rahatlıq gətirir

Azərbaycanda 2014-cü ilin sentyabr ayının sonuna kimi elektron imza sertifikatına malik olan hüquqi və fiziki şəxslərin sayı 24 min nəfəri keçib. Rabitə və yüksək texnologiyalar nazirinin müavini İltimas Məmmədovun sözlərinə görə, e-imza alanların 3583-ü hüquqi şəxs, 5493-ü vətəndaş və 15310-u dövlət orqanlarının əməkdaşlarıdır. Artıq e-imza ilə bağlı regionlarda aparılan təşviqedici və maarifləndirici tədbirlər öz səmərəsini verib və bölgələrdə elektron imza istifadəçilərinin sayında əhəmiyyətli dərəcədə artım müşahidə olunur. Regionlarda dövlət strukturlarının nümayəndələri ilə bərabər ictimai qurumların, sahibkarlıq subyektlərinin əldə etdikləri e-imza sertifikatlarının sayının artımı ilə yanaşı, «E-hökumət» portalına daxilolma üzrə əməliyyatların sayı da 2-3 dəfə artıb.

Bildirilib ki, elektron imzanın tətbiqi dövlət orqanlarının elektron xidmətlərindən istifadə imkanlarını genişləndirib, insanlara daha təkmil, rahat və keyfiyyətli xidmətlərin göstərilməsini təmin edib. Bu yeniliyin tətbiqi sayəsində son bir ildə e-ticarətin inkişafında yeni mərhələ başlayıb, elektron təhlükəsizlik sisteminin güclənməsi biznes qurumlarının bu xidmətdən istifadəyə inam və etibarını möhkəmləndirib.

2013-cü ilin iyul ayından Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə «Asan imza» layihəsinə start verən Vergilər Nazirliyinin bu istiqamətdə gördüyü işlər də öz müsbət təsirlərini göstərməkdədir. «Mobil hökumət» layihəsi çərçivəsində yeni nəsil elektron xidmətlərin tətbiqinin başlanğıcı və ölkəmizin rəqabətqabiliyyətli və ixracyönümlü İKT məhsulu olan «Asan imza»nın tətbiqinin daha da genişləndirilməsi istiqamətində işlər davam etdirilir. Vergilər nazirinin birinci müavini Natiq Əmirov bildirib ki, «Asan imza»nın tətbiqini daha da genişləndirmək və yüksək texnologiyaların milli vergi sistemində istifadəsini davam etdirməklə yanaşı, yaxın gələcəkdə bəyannamələrin əvvəlcədən doldurulması və elektron auditin genişmiqyaslı tətbiqi sistemlərinin reallaşdırılması nəzərdə tutulur.




*E-imzadan istifadə edən şəxslərin, sahibkarların bu xidmət haqqında təsəvvürləri necədir? Vergi ödəyiciləri «Asan imza»nın hansı üstünlüklərə malik olduğunu düşünürlər. Bu məqsədlə bir neçə sahibkarın fikirlərini öyrəndik.*

Rüfət Məhərrəmov nəqliyyat və daşınma sahəsi üzrə fəaliyyət göstərən şirkətdə işləyir. İlin əvvəllərindən e-imza əldə edib və asan şəkildə «E-hökumət» portalına daxil olduğunu bildirir. Sahibkar deyir ki, portaldan istifadə etmək üçün müəssisədə lazımi bilik və məlumatlara yiyələnib. E-xidmətlər sahəsi üzrə ixtisaslaşmış mütəxəssislərin köməyi ilə şirkətdə təşkil olunmuş maarifləndirici tədbirlər, izahat işləri sayəsində portala giriş və istifadə qaydalarını mənimsəyib. Özü sərbəst şəkildə e-imzadan istifadə etməklə elektron sistemə daxil olur, portalda lazım olan işləri həyata keçirir.

Fiziki şəxs Rəcəb Sultanov tikinti materaillarının satışı ilə məşğuldur. O, qeyd edir ki, vergi bəyannamələrinin tərtib edilməsini özü bacardığından xidmət mərkəzinin əməkdaşlarının və ya başqa şəxslərin köməyinə ehtiyac duymur. Ötən ilin sentyabrında ona vergi bəyannamələrinin göndərilməsi üçün «Asan imza» tələb olunduğu barədə məlumat verilib. Yeni e-xidmətdən istifadə qaydaları barədə məlumatsız olduğundan mütəxəssisə müraciət etməli olub. «Asan imza» kartı əldə edən sahibkar ilk dövrdə çətinlik çəksə də, e-imzanın tətbiqini mənimsəyə bilib. Hazırda heç bir çətinlik çəkmədən bəyannamələri «Asan imza»dan istifadə etməklə göndərməyi bacarır və bu, onun işlərinə rahatlıq gətirir.

Nurəddin Camalov xidmət sahəsi üzrə fəaliyyət göstərən «B.S.T» şrikətində çalışır. O, təxminən 1 ilə yaxındır ki, «Asan imza» sahibi olduğunu deyir. Bildirir ki, informasiya texnologiyalarından istifadə etmək imkanlarının artması onun mobil telefon vasitəsilə istənilən əməliyyatları həyata keçirməsinə imkan verir.

Mehrab Hüseynov Bakıdakı ticarət yarmarkalarının birində mağaza sahibidir. Vergi ödənişi məsələsində həmişə intizamlı və həssas olmağa çalışan sahibkar deyir ki, ötən il ticarət mərkəzinin sahibi onlara vergi hesab-fakturalarının göndərilməsi və digər əməliyyatları aparmaq üçün «Asan imza» tətbiq edildiyini bildirib. Bundan sonra «Asan imza» üçün mobil rabitə operatorlarından birinə müraciət edib və kart alıb. Kartdan istifadə qaydaları barədə Vergi ödəyicilərinə xidmət mərkəzində məlumatlandırılıb, sonra nazirliyin Asan Sertifikat Xidmətləri Mərkəzinə müraciət edib. Bir ilə yaxındır ki, «Asan imza» sahibi olan M.Hüseynov bu xidmətin sahibkarların rahatlığı üçün yaradıldığını, onların işinin asanlaşmasına səbəb olduğunu bildirir: «Asan imza» elektron xidmətlərdən daha asan və rahat, kompüter olmadıqda mobil telefon vasitəsilə istifadəyə imkan verir».

**Elbrus CƏFƏRLİ**

# Güzəştli kreditlər sahibkarlığın inkişafını stimullaşdırır

Ölkədə biznes mühitinin yaxşılaşdırılması, sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi, işsizliklə mübarizə, azad rəqbət şəraitinin yaradılması və s. istiqamətlərdə görülən işlərin içərisində sahibkarlara verilən güzəştli kreditlərin xüsusi yeri var. Sahibkarları onlar üçün yaradılmış imkanlar barədə məlumatlandırmaq məqsədilə İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlara Kömək Milli Fondu hər ay paytaxtın qəsəbələrində və regionlarda iş adamları ilə görüşlər keçirir.

***Dağlıq Şirvan iqtisadi rayonunda sahibkarlıq subyektlərinə 48,5 milyon manat güzəştli kredit verilib***

Sentyabr ayı ərzində Şamaxı, Goranboy, Biləsuvar və Suraxanı rayonlarında sahibkarlar üçün işgüzar forumlar keçirilib. Sahibkarlığın güzəştli kreditləşdirilməsi məsələlərinə dair Şamaxıda keçirilən işgüzar forumda Şamaxı rayonundan və ətraf bölgələrdən 70-ə yaxın sahibkara 1 milyon manatdan çox güzəştli kredit verilmişdir ki, bu vəsaitin reallaşdırılması hesabına 130-a yaxın yeni iş yerinin açılması mümkün olacaq. Ümumiyyətlə, indiyədək Dağlıq Şirvan iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 1340 investisiya layihəsinin maliyyələşdirilməsinə 48,5 milyon manat güzəştli kredit verilmiş, digər sahələrlə yanaşı, ixtisaslaşdırılmış «yaşıl market», müasir texnologiyaların tətbiqinə əsaslanan kənd təsərrüfatı üzrə logistik mərkəzlər, heyvandarlıq kompleksləri, quşçuluq fabriki, çörək zavodu, meyvə, ət və süd emalı müəssisələri, üzümçülük təsərrüfatları və s. sahələr üzrə investisiya layihələri maliyyələşdirilmiş, 5 mindən çox yeni iş yeri yaradılmışdır.

***Məcburi köçkün sahibkarlar da diqqətdən kənar qalmır***

Goranboy rayonunda Xankəndi və Xocalıdan olan məcburi köçkün sahibkarlarla görüşdə 58 sahibkara 382 min manat güzəştli kredit verilib. Bu layihələrin reallaşması isə 60-dan çox yeni iş yerinin yaradılması deməkdir. Verilmiş kreditlər, əsasən, heyvandarlıq, arıçılıq və s. sahələrin inkişafına yönəldilib.

Oktyabrın 3-də Füzuli rayonunun Horadiz şəhərində məcburi köçkün sahibkarlarla dövlətin güzəştli kreditlərinin alınması məsələlərinə dair işgüzar forum keçirilmişdir. 100-ə yaxın sahibkarın iştirak etdiyi forum çərçivəsində Sahibkarlığa Kömək Milli Fondu tərəfindən hazırlanmış güzəştli kreditlər hesabına maliyyələşdirilməsi məqsədəuyğun olan sahələrə - ixtisaslaşdırılmış «yaşıl market»in, fermer mağazalarının, pendir istehsalı və meyvəqurutma müəssisələrinin, cins heyvandarlıq və üzümçülük təsərrüfatlarının yaradılması üzrə nümunəvi investisiya layihələrinin təqdimatı keçirilmiş, bu investisiya layihələrinin dövlətin güzəştli kreditləri hesabına maliyyələşdiriləcəyi bildirilmiş, sahibkarlara nümunəvi layihələr, metodiki materiallar paylanmışdır.

Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev bildirmişdir ki, fəaliyyətlərində əsas prioritetlərdən biri məcburi köçkünlərin sahibkarlıq fəaliyyətinə cəlb olunmasının stimullaşdırılması məqsədilə onlara dövlətin güzəştli kreditlərinin verilməsi və maarifləndirilməsidir. Qeyd edilmişdir ki, indiyədək 1451 məcburi köçkün sahibkara 34,5 milyon manat güzəştli kredit verilmiş, bu kreditlərin reallaşdırılması nəticəsində 3000-ə yaxın yeni iş yerinin yaradılması mümkün olmuşdur. Təkcə 2014-cü ilin əvvəlindən bəri ümumilikdə 246 məcburi köçkün sahibkara 8,7 milyon manat güzəştli kredit (bu forumda verilən kreditlər də daxil olmaqla) verilmişdir ki, bu kreditlər hesabına 450-yə yaxın yeni iş yerinin yaradılması nəzərdə tutulur. Son illərdə məcburi köçkün sahibkarlar tərəfindən həyata keçirilən, yeni texnologiyaların tətbiqinə əsaslanan 7 investisiya layihəsinin maliyyələşdirilməsinə 24,3 milyon manat güzəştli kredit verilmişdir.




İşgüzar forum çərçivəsində müvəkkil kredit təşkilatları vasitəsilə Füzuli və ətraf rayonlardan olan 43 sahibkara 721 min manat güzəştli kredit verilmişdir. Bu layihələrin reallaşması 70-dən çox yeni iş yerinin yaradılmasına imkan verir.

Horadiz qəsəbəsində keçirilmiş tədbir zamanı məcburi köçkün sahibkarlarla müvəkkil kredit təşkilatlarının nümayəndələri arasında işgüzar müzakirələr aparılmışdır.

Forum çərçivəsində Füzuli rayonunda güzəştli kreditlərdən istifadə etməklə yaradılmış 1000 başlıq müasir heyvandarlıq kompleksinə baxış keçirilmişdir. Bu heyvandarlıq kompleksinə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 5 milyon manat güzəştli kredit verilmişdir.

***Aran iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlıq subyektləri kreditlərdən fəal istifadə edirlər***

Biləsuvar rayonunda keçirilmiş işgüzar forum zamanı Biləsuvar və ətraf rayonlardan olan 70 sahibkara 1,4 milyon manat güzəştli kredit verilib. Bu kreditlərin reallaşdırılması hesabına heyvandarlıq, quşçuluq, şirniyyat məhsullarının istehsalı və s. sahələr üzrə 170-dən çox yeni iş yerinin açılması gözlənilir. Ümumilikdə, indiyədək Aran iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 8756 investisiya layihəsinin maliyyələşdirilməsinə 379,2 milyon manat güzəştli kredit verilmiş, digər sahələrlə yanaşı, müasir texnologiyaların tətbiqinə əsaslanan logistika mərkəzlərinin, quşçuluq fabriklərinin, çörək zavodlarının, üzümçülük, intensiv bağçılıq, tingçilik və toxumçuluq, istixana təsərrüfatlarının, meyvə-tərəvəz emalı, ət, süd emalı, quru meyvə, tikinti materialları istehsalı müəssisələrinin yaradılması və s. sahələr üzrə investisiya layihələri maliyyələşdirilmiş, 31000-dən çox yeni iş yerinin açılması imkanı yaradılmışdır.

***Paytaxt qəsəbələrində sahibkarlıq subyektlərinə irihəcmli güzəştli kredit verilib***

Ötən ay sonuncu işgüzar forum Suraxanı rayonunun Əmircan qəsəbəsində keçirilib. 80-ə yaxın sahibkarın iştirak etdiyi tədbir zamanı müvəkkil kredit təşkilatları tərəfindən 28 sahibkarlıq subyektinə 9,9 milyon manat kredit verilib. Bu vəsait heyvandarlıq, quşçuluq, zəfərançılıq, istixana təsərrüfatının yaradılması, çörək, un və un məmulatları, konserv məhsulları, beton istehsalı və s. sahələrin inkişafı sahəsində 160-dan çox yeni iş yerinin açılmasına imkan yaradacaq.

Sahibkarlığa Kömək Milli Fondundan verilən məlumata görə, indiyədək ölkə üzrə 4018 sahibkarlıq subyektinin investisiya layihəsinin maliyyələşdirilməsinə 202,3 milyon manat güzəştli kredit verilmişdir. Bu kreditlər hesabına maliyyələşdirilən layihələrin reallaşdırılması 9000-ə yaxın yeni iş yerinin yaradılmasına imkan verib. Ümumilikdə, indiyədək Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində paytaxt qəsəbələrində sahibkarlıq subyektlərinin 877 investisiya layihəsinin maliyyələşdirilməsinə 197,3 milyon manat güzəştli kredit ayrılıb və investisiya layihələrinin reallaşdırılması sayəsində 6200-dən çox adam işlə təmin olunub.

**AYTƏN**

beynəlxalq panoram

## Qazaxıstanda avtomobil sürücülərinə yeni vergi tətbiq edilə bilər

Parlamentdə deputatlar Nazirlər Kabinetini artıq bir çox ölkələrdə mövcud olan vergi - utilizasiya yığımı tətbiq etməyə çağırıblar. Qazaxıstan Respublikası Parlament Məclisinin deputatı Talqat Yerqaliyev bildirib ki, verginin tətbiqi yerli avtomobil sənayesinin gələcək inkişafına xeyli kömək edəcək, habelə köhnə avtomobillərin utilizasiya üçün təhvil verildikdən sonra vətəndaşlara yeni avtomobil almaq üçün subsidiyalar verilməklə avtoparkın təzələnməsini stimullaşdıracaq. Parlament üzvləri hesab edirlər ki, bu vergi bəzi problemləri həll edəcək: məsələn, avtomobil parkı yenilənəcək, yerli avtomobil sənayesinin inkişafına kömək edəcək. Bu təklifi irəli sürən millət vəkilləri 2010-cu ildə utilizasiya proqramı sayəsində avtomobil istehsalını iki dəfə artırmış qonşu Rusiyanı nümunə gətirirlər. Onların qənaətinə görə, insanlara köhnə avtomobili saxlamaq sərf etmir. Bununla yanaşı, deputatlar Nazirlər Kabinetini ölkədə istehsal edilmiş avtomobilləri almaq istəyən əhaliyə subsidiyalar verməyə çağırıblar. Bu vəsait köhnə avtomobilini yenisi ilə əvəzləmək istəyənlərə veriləcək.

## Yunanıstanda ƏDV-nin təsbit olunmuş dərəcəsi təklif edilir

*Ölkənin üç əsas beynəlxalq kreditoru vergi intizamını gücləndirmək və inzibati xərcləri azaltmaq məqsədilə Yunanıstan hökumətini ƏDV üzrə vahid və daha aşağı dərəcənin tətbiq olunması imkanlarını apaşdırmağa çağırmışdır. ƏDV-nin hazırda qüvvədə olan 13% və 6,5% dərəcəsini özündə birləşdirən 23% standart dərəcə tətbiq olunması təklif edilir. Bu dərəcə 20% ola bilər.*

Maliyyə böhranı başlayandan Yunanıstanda ƏDV-nin dərəcəsi yüksəldilmişdir. Standart ƏDV dərəcəsi 2014-cü ilin başlanğıcından etibarən 19%-dən 23%-dək artmışdır. Beynəlxalq Valyuta Fondu ehtimal edir ki, Yunanıstan mövcud vergi güzəştlərini ləğv etməklə verginin yuxarı həddini 20% müəyyənləşdirə bilər. Amma hökumətin 1 avqust 2013-cü ildən restoranlar, yeməkxanalar, kafelər üçün vergi dərəcəsinin 13%-ə endirilməsinə nail olduğunu nəzərə alsaq, bu təkliflər güclü müqavimətlə rastlaşacaq. Bunun üçün üç əsas beynəlxalq kreditorun razılığı tələb olunmuşdu və yalnız bir il ərzində tətbiq edilməsi nəzərdə tutulurdu.

Ehtimal olunur ki, islahatlar hökumətin gəlirlərinə güclü təsir göstərmədən aparılacaq və 19% dərəcə tətbiq oluna bilər. ƏDV-nin dərəcəsini 20%-dən yuxarı həddə müəyyən edən ölkələrdə vergi intizamının pozulması halları daha geniş yayılmışdır və BVF-nin mövqeyinə görə, onun aşağı səviyyədə qalması intizamı gücləndirəcək, daha real mənfəət əldə olunmasına və dövlət gəlirlərinin artmasına imkan yaradacaq.

Bundan əlavə, Avropa Komissiyası Yunanıstanın vergi orqanları ilə ƏDV sahəsində əməkdaşlığını gücləndirir. Qurumun Yunanıstan üzrə son məruzəsində ölkənin ƏDV qanunvericiliyinə yenidən baxılması, bu verginin sadələşdirilməsi, fırıldaqçılıqla mübarizənin gücləndirilməsi qeyd edilir.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) özünün sonuncu məruzəsində Yunanıstanda vergi intizamının gücləndirilməsi və ƏDV rejiminin sadələşdirilməsi üzrə həyata keçirilən tədbirləri bəyənmişdir. Təşkilat ƏDV məqsədləri üçün qeydiyyatın aşağı həddinin 10 min avro məbləğində müəyyənləşdirilməsinə çağırmışdır. Hakimiyyət orqanlarına fəal olmayan ƏDV ödəyicilərini ƏDV reyestrindən çıxarmaq və bununla da onları ƏDV uçotunu aparmaq tələbindən azad etmək məsləhət görülür. Bununla vergi orqanlarının fəal vergi ödəyicilərinin fəaliyyətinə nəzarəti gücləndirmək imkanı genişlənəcək. Təşkilat dövri qaydada təqdim olunan ƏDV bəyannaməsini sadələşdirməklə hər ay, yaxud hər rüb verilən məlumatların həcminin azaldılmasını tövsiyə etmişdir. İƏİT-in məruzəsində deyilir ki, vergi islahatları tam miqyasda həyata keçirildiyi təqdirdə, inzibati xərclərin məbləğini hər il təqribən 430 milyon avro azaltmaq mümkündür.

## İsveçrə hökuməti FIFA məmurlarını vergi güzəştlərindən məhrum edib

*Ədliyyə naziri bəyan edib ki, 2018 və 2022-ci illərdə keçiriləcək dünya çempionatına ev sahibliyinə iddiaçıların seçkisində korrupsiya qalmaqalı baş verdiyinə görə, hökumət FIFA məmurlarına vergi güzəştləri tətbiq etməyəcək.*



Hökumət dairələrindən İsveçrə ərazisində 30-dan çox nümayəndəliyi olan digər beynəlxalq idman təşkilatları barədə münasibətlərə yenidən baxılacağı bildirilir.

Xatırladaq ki, vergi güzəştləri idman təşkilatlarını İsveçrəyə cəlb etmək üçün tətbiq olunmuşdu.

İsveçrəli deputat Roland Bühel bildirib ki, bundan sonra FIFA məmurlarının hesabları «ən qəddar diktatorların» hesablarına yanaşma qaydasında yoxlanılacaq.

Xarici ölkələrin təcrübəsi

# Fransa Respublikasının vergi sistemi

*Avropanın həm siyasi, həm iqtisadi, həm də tarixi-mədəni mərkəzlərindən olan Fransa Respublikası Avropa İttifaqı, Avrozona və Şengen Zonası ideyalarının əsas təşəbbüskarlarından olmuşdur.*

1999-cu ildən Fransanın pul vahidi frank avro ilə əvəz edilmişdir.

Fransa ÜDM-in həcminə görə dünyada 5-ci, Avropada isə Almaniyadan sonra 2-ci yerdədir. 2012-ci ildə Fransada ÜDM 2612,7 mlrd. ABŞ dolları təşkil etmişdir. ÜDM-in real artımı 0% olmuşdur. Fransanın ÜDM-in sektorlar üzrə bölgüsündə xidmətlər (79,2%) və sənaye (18,8%) üstünlük təşkil edir. 2012-ci il üzrə adambaşına düşən ÜDM 40 min ABŞ dolları, dövlət büdcəsinin gəlirləri 1353,4 mlrd. ABŞ dolları, dövlət büdcəsinin xərcləri 1478,8 mlrd. ABŞ dolları olmuşdur.

Fransada Baş Dövlət Maliyyə Direktorluğu (BDMD) 2008-ci ildə Fransa Büdcə Nazirliyinin iki böyük orqanının - Baş Vergi Direktorluğu və Dövlət Maliyyəsi Baş Direktorluğunun birləşməsi nəticəsində yaranmışdır. Baş Dövlət Maliyyə Direktorluğu İqtisadiyyat və Maliyyə Nazirliyinin tərkibinə daxildir, əsas funksiyası dövlət maliyyəsinin (gəlir və xərclərin) idarə olunması, vergilərin tam və vaxtında dövlət büdcəsinə köçürülməsini təmin etməkdir.

Hər bir inzibati-ərazi departamentində bir vergi idarəsi mövcuddur. Bu ərazi idarələrinin funksiyaları Fransa vergi sisteminə uyğun qurulmuşdur. Buraya biznes vergiləri, fərdi vergilər, büdcədən geriqaytarma, xəzinədarlıq, vergi ödəyicilərinə xidmət mərkəzləri, xüsusi təftiş qrupları daxildir. Fransa BDMD vergi ödəyiciləri kriteriyasına uyğun təşkil edilmişdir. Vergi administrasiyası tərəfindən idarə olunan əsas vergilərə gəlir vergisi, mənfəət vergisi, ƏDV, kapital artımından vergi, miras vergisi, zənginlik vergisi, əmlak vergisi, avtomobil vergisi, daşınmaz əmlak vergisi daxildir. BDMD-nin həyata keçirdiyi qeyri-vergi funksiyalarına yalnız əmlakın qiymətləndirilməsi aid edilir.

Fransa BDMD-nin xətti ilə 2012-ci ildə 570,3 mlrd. ABŞ dolları (birbaşa vergilər 32,5%, dolayı vergilər 39,1%, sosial fondlar və digər ödənişlər 28,4%) həcmində vergi daxilolması təmin edilmişdir. Fransada vergi ödəyicilərinin sayı 38.189 min, ƏDV ödəyicilərinin xüsusi çəkisi 13,1%-dir. Vergi ödəyicilərinin əhalinin sayında xüsusi çəkisi 58,5%-dir. Bir vergi ödəyicisinə düşən ödənilmiş vergi 14,9 min ABŞ dolları, vergi əməkdaşlarının sayı 69649 olmuşdur. Vergi əməkdaşlarının sayında qadınların xüsusi çəkisi 72% təşkil edir.



### Fransada mənfəət vergisi

2005-ci ildən mənfəət vergisi sistemi klassik ikiqat vergitutma prinsipinə əsaslanır. Əldə olunmuş mənfəət müəssisə səviyyəsində vergiyə cəlb olunduqdan sonra xalis mənfəət səhmdarlara ödənildikdə bir daha vergiyə cəlb olunur.

Mənfəət vergisi öhdəliyi məcburi və könüllü ola bilər. Məcburi mənfəət vergisi öhdəliyi olan müəssisələr aşağıdakılardır:

- ♦ Korporasiyalar (SAs);
- ♦ Sadələşdirilmiş səhmdar cəmiyyətləri (SASs);
- ♦ Məhdud məsuliyyətli cəmiyyətlər (SARLs);
- ♦ Səhmlərin bölgüsü ilə məhdudlaşan ortaqlıqlar.

Mənfəət vergisi öhdəliyini könüllü seçmək hüququ olan müəssisələr: ümumi ortaqlıqlar, məhdud ortaqlıqlar (ümumi ortaqlar üçün), vahid üzvlü MMC-lər, dövlət orqanları, birgə müəssisələr hesab olunur.

Hüquqi ünvanı və ya effektiv idarəetmə yeri Fransada olan müəssisələr rezident müəssisələr hesab olunur.

OECD ölkələrinin əksəriyyətində mövcud olan qaydaların əksinə olaraq, Fransada mənfəət vergisi ərazi prinsipinə əsaslanır. Yəni mənfəət vergisi yalnız Fransada fəaliyyət göstərən müəssisələrin (daimi nümayəndəlik, filial və s.) sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə ödənilir. Fransa ərazisindən kənarda fəaliyyət göstərən müəssisələrin əldə etdikləri gəlirlər və zərərlər ölkənin vergi məqsədləri üçün nəzərə alınmır.

Hər növ sahibkarlıq gəlirləri - biznes aktivlərinin transferindən əldə edilən kapital gəlirləri də daxil olmaqla, eyni kateqoriya altında bir dərəcə ilə vergiyə cəlb olunur.

Dividendlər və kapital gəlirləri üzrə iştirak azadolması istisna olmaqla, mənfəət vergisi üzrə digər əhəmiyyətli azadolma nəzərdə tutulmamışdır.

Vergi tutulan gəlirin əldə edilməsi və saxlanması ilə bağlı müvafiq qaydada əsaslandırılmış xərclər gəlirdən çıxılır. Buraya işçilərə ödənilən əmək haqları və işəgötürənin işçilərin xeyrinə ödədikləri qrup sosial sığorta ödənişləri daxildir. Müəyyən hədlər daxilində bir sıra maliyyə köçürmələri də gəlirdən çıxıla bilər.

2014-cü il yanvarın 1-dən xalis faiz xərclərinin yalnız 85%-i gəlirdən çıxıla bilər. 2014-cü ildən bu məhdudiyyət 75%-dək endirilmişdir. Məhdudiyyət həm qarşılıqlı asılı şəxslər, həm də bu cür münasibətdə olmayan şəxslər arasında yaranmış kredit faizlərinə tətbiq olunur. Qaydalara əsasən, 3 mln. avro həcminə qədər xalis faiz xərclərinin məhdudiyyətsiz çıxılmasına yol verilir.

Mənfəət vergisindən başqa, müvəqqəti vergi əlavəsi, sosial vergi əlavəsi və müəssisənin fəaliyyəti ilə bağlı digər xərclər gəlirdən çıxılır. Biznes transaksiyaları zamanı ödədiyi ƏDV-ni əvəzləşdirə bilmirsə, müəssisənin ödədiyi ƏDV məbləği gəlirdən çıxıla bilər.

*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*




krossvord

**Yuxarıdan aşağı:**

1.Qəbələ rayonu ərazisindən axan çay, Türyançayın sol qolu; 2.Avtomobil markası; 3.Dünyanın ən məşhur qülləsi; 4.Sakit okeanın şimalında dəniz; 5.Xalq şairinin adı, «Nəsimi» poemasının müəllifi; 6.Macar xalq rəqsi; 9.Qədim dövrdə misirlilərin inancına görə günəş tanrısının adı; 13.Bağırsaq infeksiyası; 15.Kiminsə işinin təşkilinə kənardan təsir göstərən şəxs, sözün kökü «müdafiə etmək» mənasını verir; 16.Qammanın səkkizinci pilləsi, habelə müxtəlif yüksəklikdə olan ən yaxın eyniadlı səslər arasındakı interval; 17.Azərbaycanda futbol klubu; 18.Teatrda tamaşa zalının bir hissəsi; 20.Baltik dənizinin şərq sahilində dövlət; 21.Alqış.

**Soldan sağa:**

1.İdman komanda oyunu; 5.Cütdırnaqlılar dəstəsinin boşbuynuzlular fəsiləsindən heyvan; 7.Bənzərliyə, oxşarlığa, analogiyaya əsasən söz və ya ifadənin məcazi mənada işlənməsi; 8.Türk mifologiyası və xalq inancında vampir; 10.Açıq dənizdə (okeanda) dayaz laqunanu əhatə edən alçaq mərcan adası; 11.«Bir cənub şəhərində» filmində Rəna obrazını canlandıran aktrisanın adı; 12.RF-nin Saxalin vilayətində şəhər; 14.Tünd alkoqollu içkilərin ümumi adı; 19.Arxaya uça bilən yeganə quş; 21.Biosenozun, assosiasiyanın, həmçinin daha böyük taksonların bitki və heyvanat aləminin növ məcmusu (flora və fauna); 22.Lerik rayonunda kənd; 23.Macarıstanın paytaxtı; 24.Hüseyn Cavidin dram əsəri; 25.Rütubəti ölçən cihaz.

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Purizm; 2.Artikul; 3.İfrat; 4.Takoma; 5.Şaman; 6.Həmidə *(Ömərova)*; 9.Arpa - Qırtıckimilər fəsiləsinə aid bitki cinsi; 13.Yuxu; 15.Embrion; 16.İmamət; 17.Stator; 18.Plimut; 20.Lider; 21.Britt.
**Soldan sağa:** 1.Plagiator; 5.Şah; 7.Ritorika; 8.İmam; 10.Zəkat; 11.Marinad; 12.Klayd; 14.Baget; 19.Malaxit; 21.Babil; 22.Mədə; 23.Stoisizm; 24.Tir; 25.Peritonit.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 14200

**idman**

# Velosiped idmanı üzrə Azərbaycan çempionatına yekun vurulub



Oktyabrın 7-də Quba, Qusar və Xaçmaz rayonları ərazisində 100-ə yaxın velosipedçinin iştirak etdiyi çoxgünlük ötüşmələr üzrə Azərbaycan çempionatına yekun vurulub. Gənclər və İdman Nazirliyi və Velosiped İdmanı Federasiyası tərəfindən təşkil edilən dördgünlük yarışa ilk dəfə olaraq Bakı və Sumqayıt velosipedçiləri ilə yanaşı, Oğuz rayonunda fəaliyyət göstərən velosiped bölməsinin idmançıları da qatılıblar. Bundan başqa, Azərbaycan çempionatının açıq xarakterli olması Gürcüstan yığma komandasının 8 üzvünün də turnirdə mübarizə aparmasına imkan verib.

Ölkə çempionlarının sonuncu mərhələsi Quba şəhərində baş tutub. Yağışlı hava şəraitində şəhər küçələri ilə hərəkət edən velosipedçilərin mübarizəsi kifayət qədər maraqlı alınıb. Nəticələrə gəlincə, 15 yaşadək velosipedçilər arasında 8 saylı İdman Olimpiya Mərkəzinin təmsilçisi Xankişi İsgəndərov 1-ci, onun komanda yoldaşı Ravil Xıdırov isə 3-cü olub. Gürcüstanlı Georgi Koçakidze 2-ci yeri tutub.

17 yaşadək velosipedçilərin mübarizəsi «Lokomotiv» klubunun nümayəndəsi Kərim Şirəliyevin qələbəsilə yekunlaşıb. Gümüş və bürünc medalları isə, müvafiq olaraq, gürcüstanlı Georgi Petrin və 8 saylı İdman Olimpiya Mərkəzinin təmsilçisi Mikayıl Səfərli qazanıb.

«Elit» kateqoriyasında, 23 yaşadək və gənc velosipedçilər arasında 4 mərhələnin 3-də qalib gələn 8 saylı İdman Olimpiya Mərkəzinin üzvü Elgün Əlizadə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. İxtisaslaşdırılmış Uşaq-Gənclər Velosiped məktəbinin üzvləri Ayxan İltifatlı və Elvin Nağıyev isə sonrakı yerləri bölüşüblər.

Çempionatın sonunda qaliblərə medal, diplom və pul mükafatı təqdim olunub.

# Güləşçilərimiz beynəlxalq turnirdə iştirak edəcəklər

*Oktyabrın 11-12-də Qroznıda Çeçenistan Respublikasının prezidenti Ramzan Kadırovun Kuboku uğrunda sərbəst güləş üzrə VI beynəlxalq turnir keçiriləcək. Azərbaycan Güləş Federasiyasından verilən xəbərə görə, məşqçilər David Kurtsiya və Nazim Əlicanovun rəhbərliyi altında turnirdə Azərbaycan yığma komandasının 8 üzvü iştirak edəcək.*



Heyətdə Namiq Sevdimzadə (57 kq), Ağahüseyn Mustafayev, Məhəmməd Müslümov (hər ikisi 65 kq), Ruslan Dibirhacıyev (70 kq), Cəbrayıl Həsənov, Əşrəf Əliyev (hər ikisi 74 kq), Aleksandr Qostiyev (86 kq) və Aslan Dzebişov (125 kq) yer alıb.

Görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Zaur Şərifov təmsil edəcək.

Turnirin proqramına əsasən ilk gün 57, 65, 74 və 97 kq, ikinci gün isə 61, 70, 86 və 125 kq çəki dərəcələrində qaliblər müəyyənləşəcək.

# Dünyanın məşhur pilotları "V1 Challenge Azerbaijan"da

*Azərbaycan Avtomobil Federasiyasının oktyabrın 11-də «Baku Crystal Hall»da keçirəcəyi «V1 Challenge Azerbaijan» yarışında 12 ölkədən 14 pilot iştirak edəcək.*

Yarışda ralli üzrə Avropa çempionu, belçikalı Patrik Snayers, üçqat «Drift Challenge» çempionu, 2014-cü ildə ən uzun drift üzrə dünya rekordçusu, almaniyalı Harald Müller, ralli üzrə beşqat Portuqaliya çempionu, Avropa çempionatının gümüş mükafatçısı Migel Kampos, «V1 Challenge 2011» çempionu, türkiyəli Burak Çukurova, «V1 Challenge Moldova 2012» çempionu Nikolay Kiriyak, «Fransa F4» və «Volant Euroformula 2013» çempionu Anton Huber və digərləri birincilik uğrunda mübarizə aparacaqlar.

Azərbaycanı yarışda kartinq üzrə ölkə çempionları Gülhüseyn Abdullayev, Adil Axundov və «V1 Challenge Moldova 2013» çempionu Timur Muradov təmsil edəcək.

# Gənc olimpiyaçılarımız mükafatlandırıldı

*Oktyabrın 9-da Milli Olimpiya Komitəsinin (MOK) İcraiyyə Komitəsinin iclası keçirilib.*

Yeniyetmələrin II Olimpiya Oyunlarının nəticələrinin müzakirə olunduğu tədbirdə bu mötəbər yarışda uğur qazanmış Azərbaycan idmançıları mükafatlandırılıb.

Qeyd edək ki, 14-28 iyul tarixlərində Çinin Nanjinq şəhərində keçirilən Yeniyetmələrin II Olimpiya Oyunlarında Azərbaycan 9 idman növü üzrə 21 idmançı ilə təmsil olunub. İdmançılarımız 5 qızıl, 6 gümüş və 1 bürünc medalla 204 iştirakçı ölkə arasında və medal qazana bilmiş 86 ölkə arasında 10-cu yeri tutublar. Avropa ölkələri arasında 6-cı və MDB ölkələri arasında Rusiya və Ukraynadan sonra 3-cü olan Azərbaycan İslam ölkələri arasında 1-ci yerdə qərarlaşıb.

**mozaika**

# Yeni tərcümə plugini istifadəyə verilib

texnologiya

*«Dilmanc» Azərbaycan, türk, ingilis və rus dillərində tərcümə imkanı yaradan plugini (əsas proqrama qoşularaq istifadəçiyə əlavə imkan yaradan proqram modulu) istifadəyə verib.*

«Dilmanc» qrupundan bildirilib ki, bu plugini düymə şəklində internet brauzerə (Google Chrome, Mozilla Firefox) əlavə edərək təqdim olunan tərcümə imkanlarından yararlanmaq mümkündür.

Bunun üçün istifadəçinin istənilən səhifədə hər hansı mətni seçərək «Dilmanc plugin» düyməsini sıxması kifayətdir. «Dilmanc plugin» onun əvəzinə əvvəllər lazım gələn bütün prosesi icra edəcək.

Plugini «Google Chrome» brauzerinə yükləmək üçün link:




https://chrome.google.com/webstore/search/dilmanc



Plugini «Mozilla Firefox» brauzerinə yükləmək üçün link:



https://addons.mozilla.org/en-US/firefox/addon/dilmanc-translate-plugin/?src=search

# Smartfonlar uşaqların sağlamlığına təhlükə yaradır

*Uşağın uzun müddət mobil telefondan istifadə etməsi onun sağlamlığına ziyan vurur. Bəzi hallarda uşaqlar ətrafdakıların emosiyalarını fərqləndirə, ətrafda baş verənlərə reaksiya verə bilmirlər.*



Belə bir qənaətə bir sıra eksperimentlərdən sonra ABŞ-ın Kaliforniya Universitetinin mütəxəssisləri gəliblər.

Tədqiqatda iştirak edən 100 uşağı iki qrupa ayırıblar. Eksperiment çərçivəsində birinci qrupdakı uşaqlara telefondan daim istifadə etmək təklif olunub, ikinci qrupa daxil olan uşaqları isə təmiz havada oynamaq və əylənmək üçün təbiətin qoynuna çıxarıblar. Eksperiment 5 gün davam edib.

Tədqiqatın sonunda alimlər müəyyən ediblər ki, bütün vaxtlarını mobil telefonla keçirən birinci qrupdakı uşaqlar şəxsi emosiyalarını ifadə etməkdə çətinlik çəkiblər və bəzən isə həmsöhbətin nələr hiss etdiyini anlaya bilməyiblər.

Uşaqların yaşıdları ilə canlı ünsiyyətdə olması onların kommunikasiya vərdişlərini inkişaf etdirir, halbuki uşağın virtual əyləncələr aləmində olması onlarin sosiallaşmasının qarşısını alır. Nəticədə böyüməkdə olan nəsil külli miqdarda faydalı informasiya əldə etsə də, uşaq yaşları üçün çox əhəmiyyətli olan canlı ünsiyyətdən məhrum olur.

# Müasir insanın Avropada ən qədim izləri

tam ciddi

*Arxeoloji qazıntılar nəticəsində Avstriyanın Vaxau bölgəsində müasir insanın (homo sapiens) Avropa qitəsində ən qədim izləri aşkarlanıb.*

Dunay çayı yatağında yerləşən Villendorf qəsəbəsi ərazisində çalışan avstriyalı arxeoloqlar Bençe Viola və Filip Nigst yeni elmi məqalələrində müasir insanın əcdadlarının Avropada məskunlaşma tarixinin azı 43500 il olduğunu sübut ediblər. İndiyədək arxeologiya və antropologiya elminə görə, müasir insanın əcdadları Yaxın Şərqdən keçməklə Avropaya 40 min il bundan əvvəldən başlayaraq yayılıb. Yeni elmi nəticələr, xüsusilə həmin dövrdə istifadə olunmuş ov silahları və alətlər isə bu tarixin daha qədim olması qənaətinə gəlməyə əsas verir.

43500 il yaşı olan mədəni təbəqədə 2006-2011-ci illər ərzində aparılan qazıntılarda toplanmış artefaktlar əsasında alimlər onların nəzəriyyəsini təsdiqləyən elmi nəticələrini dərc etdiriblər. Əsas sübut isə çaxmaqdaşından hazırlanmış bir neçə santimetr uzunluğa malik lövhəciklərdən ibarətdir. Həmin lövhəciklər tozağacı şirəsinin köməyi ilə pilləvari şəkildə sümük üzərinə yapışdırılaraq ov silahlarında istifadə olunurdu və bu kimi nisbətən təkmil alətlərin hazırlanması daha dərrakəli insan növü olan homo sapiensə xas xüsusiyyət olmuşdur.

Avstriyalı alimlərin rəyincə, Afrikadan dünyaya yayılmağa başlayan müasir insan növü Yaxın Şərqdən keçməklə ən azı 43500 il bundan əvvəl Avropada məskunlaşmağa başlayıb və dərrakəli insanın bir növü olan Neandertalı (homo neardenthalensis) tarix səhnəsindən sıxışdırıb çıxarıb.

Tundrayabənzər step iqliminə görə buz dövrünün sonlarında məskunlaşma üçün nisbətən münasib şərtlər yaradan Dunay çayının Vaxau ərazisindəki yatağı 60-23 min il bundan əvvəlki dövrü əhatə edən doqquz mədəni təbəqədən ibarət arxeoloji artefaktlarla zəngin ərazidir.

# Duzlu yemək ömrü qısaldır

sağlam həyat tərzi

*Dünya Səhiyyə Təşkilatı (DST) sentyabrın 29-da qeyd olunan Dünya Ürək Günü ilə əlaqədar istifadə olunan duzun miqdarını azaltmağa çağırır.*



Ekspertlərin fikrincə, duzdan qədərindən çox istifadə olunması hər il 2,5 milyon insanın ürək-damar xəstəliklərindən ölməsinə səbəb olur. DST-nin qeyri-yoluxucu xəstəliklərə qarşı mübarizə strategiyasında 2030-cu ilə qədər duzdan istifadə 30 faiz nəzərdə tutulur. Qurumda hesab edirlər ki, bu tədbir milyonlarla insanın həyatını xilas edəcək.

DST-nin nümayəndəsi Tim Andersonun sözlərinə görə, ürək-damar xəstəliklərinin və insultların sayının azalmasına görə məsuliyyəti hökumətlər daşıyırlar: «Ərzaq məhsulları istehsalçılarının, satıcıların və restoranların populyar qida məhsullarında natriumun miqdarını azaltmaları üçün hökumətlər qida sənayesinin nümayəndələri ilə işləməlidirlər. Buna müxtəlif üsullarla - dialoq, birgə tənzimləmə, lazım gəlsə, qidada duzun miqdarına norma tətbiq etmək yolu ilə nail olmaq mümkündür».

Bundan əlavə, hökumətlər duzun nə üçün ziyanlı olduğunu əhaliyə başa salmaqdan ötrü maarifləndirmə kampaniyaları təşkil etməlidirlər. Ərzaq məhsullarının etiketlərində duzun miqdarının göstərilməsi daha bir vacib addımdır.

İstifadə olunan duzun 80 faizi emala məruz qalan qida ilə orqanizmimizə daxil olur. Həmin məhsullara çörək, pendir, sosuslar, hisə verilmiş ət və hazır ərzaq məhsulları daxildir. Natriumdan çoxlu miqdarda istifadə olunması hipertoniyanın inkişafını sürətləndirir, ürək-damar xəstəlikləri riskini artırır.

Biz hər gün orta hesabla 10 qram duz qəbul edirik. Bu, DST-nin müəyyən etdiyi normadan (5 qram) iki dəfə çoxdur. Qeyd edək ki, hazır məhsulların tərkibindəki duzlar da bu 5 qrama daxil olmalıdır. İki yaşdan on beş yaşa qədər uşaqlar üçün duzun norması isə daha azdır.

**Müdriklər deyib ki...**



*«Səhər yuxudan duranda özünə «Bu gün nə etməliyəm?», axşam yatmazdan əvvəl isə «Bü gün nə etdim?» sualını ver».*

*Pifaqor (e.ə.570- 495)*